www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 yanvar 2018-ci il Cümə № 19 (6908) Qiyməti 60 qəpik

**Xəbər**

## Qrip yenidən Bakının "burnunu" tutur: rəsmi xəbərdarlıq elan olundu

yazısı səh.14-də

# ƏLİYEVİN DAVOSDAN VERDİYİ ANONS İRƏVANI QARIŞDIRDI

Azərbaycanın Rusiya ilə yeni hərbi sazişlər imzalamağa hazırlaşması düşmən ölkədə çaşqınlıq yaradıb; **rusiyalı hərbi analitik:** "Qarabağa təhlükə olsa, bu, Ermənistanın problemi olacaq, Rusiyanın yox"; **erməni politoloq:** "Moskva İrəvana qarşı Bakının əli ilə ikinci "aprel" hazırlayır..."




yazısı səh.9-da

## Eldar Mahmudovun "qara qutusu" danışdı

"MTN işi"ndə ən mübhəm fiqurlardan biri olan general Teymur Quliyev günahsız olduğunu dedi; onun rəhbərlik etdiyi Monitorinq Mərkəzi illərlə gizli dinləmələr həyata keçirib

yazısı səh.7-də

**Gündəm**

### Bayıl çatı böyüyür: hökumət ayaqda, sakinlər təlaş içərisində



Yaranmış vəziyyət hökumətin müvafiq strukturlarını hərəkətə keçirdi; köçürülən sakinlərə kirayə haqqı veriləcək, amma narazılıqlar var

yazısı səh.13-də

### KXCP sədrindən ilginc açıqlamalar

yazısı səh.3-də

### Türkiyənin Ermənistanla sərhəddə divar tikməməsinin ilginc səbəbləri

yazısı səh.5-də

### Avropanın rəsmi Bakıya "kursu dəyişin" şərti - reaksiyalar

yazısı səh.3-də

### MKİ şefindən Azərbaycana xəbərdarlıq kimi açıqlama

yazısı səh.7-də

### Sərkisyan gedir, Qarabağ danışıqlarını kim aparacaq?

yazısı səh.8-də

### Afrin əməliyyatı: terrorçular darmadağın edilir

yazısı səh.10-da

### Köhnə "qurd"ların Cənubi Qafqaz uğrunda mübarizəsi qızışır

yazısı səh.11-də

### Neftin qiymətini necə hesablayaq: 119 manat, yoxsa 70 dollar...

yazısı səh.12-də

### Tramp prokuror qarşısına çıxmağa razılaşdı

yazısı səh.6-da

### Azərbaycan müxalifətinin Yavlinski və Sobçak seçimi

yazısı səh.4-də

### "LUKoil" prezidenti neftin bahalaşmasını ona görə istəmir ki...

yazısı səh.10-da



Robert Sekuta

### ABŞ-ın ölkəmizdəki səfirinin fəallaşmasının pərdəarxası

yazısı səh.5-də



### Yeni dartışma mövzusu: Elçibəyin andiçmə mərasiminin ssenarisini kim yazıb?

yazısı səh.4-də



### Fazil Məmmədovun sabiq müşaviri yanan binaya görə istintaqa çağırıldı

yazısı səh.6-da

# Deputatlar əlillərlə bağlı qanun layihəsini geri qaytardılar

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin yanvarın 25-də keçirilən iclasında yeni hazırlanan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb.**

Modern.az-ın məlumatına görə, iclasda bildirilib ki, qanun layihəsi 8 fəsil, 39 maddədən ibarətdir.

Azərbaycanda əlilliyi olan şəxslər barəsində dövlət siyasətinin əsaslarını və onların hüquqlarının müdafiəsi sahəsində dövlətin vəzifələrini müəyyən edir.

Müzakirələr zamanı fikir ayrılığı yaranıb, bəzi məsələlərin yeni qanun layihəsində əks olunmadığı qeyd olunub.

Bildirilib ki, qanun layihəsinin müzakirəsi əlil cəmiyyətləri ilə də aparılmalıdır, sonra plenar iclasa tövsiyə olunmalıdır.



Qanun layihəsinə yenidən baxılması üçün Milli Məclisin Sosial qanunvericilik şöbəsinə göndərilib.

Qeyd edək ki, hazırda tətbiq olunan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanun 1992-ci ildə hazırlanıb.

## Valideynlərini itirənlər təhsil haqqından azad oluna bilər



Hadı Rəcəbli

**Azərbaycanda valideynlərini itirmiş şəxslərin təhsil haqqından azad edilməsi təklif olunur. Bununla bağlı "Valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanuna dəyişikliklər edilməsi gözlənilir.**

"Bu, 18 yaşına qədər valideyninin birini itirmiş, o biri valideynlərdən biri isə 2-ci qrup əlil olanda həmin şəxslərin təhsil haqqının dövlət tərəfindən ödənilməsi məsələsidir".

Bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin yanvarın 25-də keçirilən iclasında komitə sədri Hadı Rəcəbli deyib.

Deputatın sözlərinə görə, hazırkı qanunvericilik buna imkan vermir ki, həmin şəxslərə köməklik edilsin.

"Təxmini hesablamalara görə, bu rəqəm 100-dən çoxdur. Biz bu şəxslərin təhsilinin maliyyə tutumunu öyrənib, daha sonra isə bununla bağlı qanunvericilikdə dəyişikliklər edə bilərik".

## Aİ-nin Cənubi Qafqaz üzrə yeni xüsusi nümayəndəsi Bakıya gələcək



Toivo Klaar

**Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstan üzrə xüsusi nümayəndəsi Toivo Klaar fevral ayında Bakıya səfər edəcək. Bu barədə «Trend»ə Avropa İttifaqının mətbuat xidmətindən məlumat verilib. Səfərin dəqiq tarixi hələ müəyyənləşdirilməyib.**

Məlumata görə, səfər çərçivəsində T.Klaar bir neçə mühüm görüşlər keçirəcək.

Qeyd edək ki, T.Klaar noyabrın 13-də Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı məsələləri üzrə xüsusi nümayəndəsi təyin olunub.

Bu vəzifəyə təyin olunmamışdan öncə T.Klaar Aİ-nin Gürcüstanda müşahidəçilər missiyasının rəhbəri postunu tutub.

Xatırladaq ki, bundan öncə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salber olub.

## Mirşahinin qardaşına hökm oxundu: 3 il



**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən fəaliyyəti dayandırılmış ANS Şirkətlər Qrupunun vitse-prezidenti, tanınmış jurnalist Mirşahin Ağayevin qardaşı Mirəddin Ağayevin cinayət işi üzrə məhkəmə iclası başa çatıb.**

"Report"un xəbərinə görə, hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Məhkəmənin hökmü ilə o, 3 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, Mirəddin Ağayev dələduzluqda ittiham edilir. Onun barəsində istintaq hələ ötən ilin noyabrında başlayıb. Belə ki, Qəzənfər Davud oğlu Qəzənfərov adlı şəxsin Səbayel Rayon Polis İdarəsinə şikayəti əsasında o, istintaqa cəlb olunub. Vətəndaş Mirəddin Ağayevin dələduzluq yolu ilə onun 2000 manatını mənimsədiyini bildirib.

Təqdim olunan sübutlar əsasında cinayət işi açılıb və bir neçə gün sonra M.Ağayev yaşadığı Yardımlı rayonunda saxlanılıb. May ayının əvvəllərində isə məhkəmə onun barəsində həbs qərarı çıxarıb.

İttihama görə, M.Ağayev 4 vətəndaşa qarşı ümumilikdə 86 min manat məbləğində dələduzluq edib.

Xatırladaq ki, ixtisasca həkim olan Mirəddin Ağayev Mirşahin Ağayevin böyük qardaşıdır.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

## Mövlud Çavuşoğlu: "ABŞ etibarını itirib"

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Fransada ABŞ xarici işlər naziri Reks Tillersonun "təhlükəsiz bölgə" təklifinə cavab verib.**

Virtualaz.org Türkiyə KİV-ə istinadən bildirir ki, M.Çavuşoğlu deyib: "Bu müddət ərzində ABŞ-la münasibətlərdə inamsızlıq yaşandı. Etibar yenidən bərpa edilmədən bu mövzuların müzakirəsi doğru deyil. Əvvəlcə real addımlar atılmalı və etibar bərpa edilməlidir".

"Məqsədləri nədir, bilmirik, əvvəlcə etibar, inamsızlıq mühiti aradan qaldırılmalıdır", - iki ölkə arasında yaranan inamsızlıqdan danışan nazir vurğulayıb.

## Almaniya Türkiyəni jurnalistlər üçün təhlükəli ölkələr siyahısından çıxardı

**"Almaniya Türkiyəni jurnalistlər üçün təhlükəli dövlətlər siyahısından çıxarıb".**

Bunu Almaniyada çıxan "Süddeutsche Zeitung" qəzeti yazıb.

Məqalədə bildirilib ki, Almaniya kansleri Angela Merkel ötən il noyabrın 14-də Adil Öksüzün tapılması üçün ölkəsinin bütün təhlükəsizlik və kəşfiyyat orqanlarına tapşırıq verib. Vurğulanıb ki, A.Öksüz 2016-cı il iyuun 15-də Türkiyədə dövlət çevrilişinə cəhdin əsas fiqurlarından sayılır.

Almaniya hökumətinin başçısı PKK terrorçu qruplaşması üzvlərinin də axtarılaraq, həbs ediləcəyini vəd edib.

Türkiyə prezidenit Rəcəb Tayyib Ərdoğan bu məsələlərə görə A.Merkelə təşəkkürünü bildirib.

"Report" xatırladır ki, Almaniya hökuməti Türkiyəni jurnaslitlərə təzyiq göstərməkdə günahlandırmış və KİV nümayəndələri üçün təhlükəli ölkələr siyahısına daxil etmişdi.

Azərbaycan Əmanətlərin Sığortalanması Fondu
ADIF
Azerbaijan Deposit Insurance Fund

## 5 bankın 40 əmlakı ilk dəfə hərraca çıxarılır

**Əmanətlərin Sığortalanması Fondu (ADİF) Xammal və Əmtəə Birjası vasitəsilə ləğv prosesində olan bir sıra bankların balansında olan əmlakı satışa çıxarır. Fonddan "APA-Economics"ə verilən xəbərə görə, 39 lot üzrə daşınar və daşınmaz əmlak ilk dəfə hərraca çıxarılır, 15 lot üzrə daşınar və daşınmaz əmlak isə təkrar hərraca çıxarılır.**

Belə ki, ləğv prosesində olan QSC "Bank Standard" KB-nin balansında olan 1 ədəd "Daewoo Nexia", 3 ədəd "Mitsubishi Lancer", 6 ədəd "Toyota Corolla", 1 ədəd "Toyota Avalon" markalı minik avtomobilləri və 2 ədəd bankomat təkrar hərraca çıxarılır.

Ləğv prosesində olan "Bank Standard" QSC KB-nin balansında olan 2 ədəd VAZ-213100, 2 ədəd "Toyota Camry", 2 ədəd "Lexus LX-570", 1 ədəd "Mercedes Benz CLS 63 AMG", 1 ədəd "Mercedes Benz GL500", 1 ədəd "Mercedes Benz S500i", 1 ədəd "Jeep Grand Cherokee", 1 ədəd "Mitsubishi Outlander", 2 ədəd "Ford Transit Connect" markalı avtomobillər və 4 ədəd bankomat isə ilk dəfə hərraca çıxarılır.

Ləğv prosesində olan "Royalbank" ASC-nin balansında olan 1 mənzil, 2 ev və 1 qeyri-yaşayış sahəsi, ləğv prosesində olan "Zaminbank" ASC-nin balansında olan 1 ədəd "Ford Transit Connect" markalı avtomobil, ləğv prosesində olan "Qafqaz İnkişaf Bankı" ASC-nin balansında olan 1 ədəd "Mercedes Benz S350" markalı avtomobil ilk dəfə hərraca çıxarılır.

Bundan başqa, ləğv prosesində olan "Kredobank" ASC-nin balansında olan 1 qeyri-yaşayış sahəsi təkrar hərraca, 2 qeyri-yaşayış sahəsi, 1 ədəd QAZ-3110, 1 ədəd "Toyota Camry" və 1 ədəd "Toyota Land Cruser" markalı avtomobillər isə ilk dəfə hərraca çıxarılır.

Ləğv prosesində olan "Texnikabank" ASC-nin balansında olan bağ evi təkrar hərraca, 2 ədəd bankomat, 7 qeyri-yaşayış sahəsi və bir lot üzrə 3 torpaq sahəsi ilk dəfə hərraca çıxarılır.

Hərrac açıq formada Xammal və Əmtəə Birjasında, Bakı şəh, İ.Hidayətzadə küç, 156(20A) 1933-cü məh. ünvanda keçiriləcək.

Ləğv prosesində olan "Texnikabank" ASC-nin balansında olan bağ evinin satışı üzrə hərrac 12 fevral 2018-ci il, ikinci dəfə satışa çıxarılan digər əmlaklar üzrə təkrar hərrac 19 fevral 2018-ci il, ilk dəfə satışa çıxarılan əmlaklar üzrə isə hərrac 26 fevral 2018-ci il tarixlərində keçiriləcək.

## Azərbaycan Kanadaya nota göndərdi

**Azərbaycan Kanadanın Xarici İşlər, Ticarət və İnkişaf Departamentinə nota göndərib**

Bu barədə modern.az-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

H.Hacıyevin sözlərinə görə, 2017-ci il sentyabrın 2-də Azərbaycanın işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş, bununla da XİN tərəfindən adları "Arzuolunmaz şəxslər siyahısı"na daxil edilmiş Kanada Parlamentinin üzvləri Toni Kleman və Reyçel Harderlə bağlı Kanadadakı Səfirliyimiz Kanadanın Xarici İşlər, Ticarət və İnkişaf Departamentinə nota ünvanlayıb:

"Kanadanın Xarici İşlər, Ticarət və İnkişaf Departamentindən daxil olmuş cavab notasında Kanadanın işğal edilmiş Dağlıq Qarabağ regionu və ətraf 7 rayon da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığı bir daha bəyan edilir. Həmçinin Kanadanın "Dağlıq Qarabağ Respublikası" və ya onu təmsil edən "rəsmiləri" tanımadığı bildirilir və Kanada hökumətinin münaqişənin ATƏT-in Minsk Qrupu prosesi çərçivəsində sülh yolu ilə həllini dəstəklədiyi vurğulanır.

Bu xüsusda, Azərbaycanın işğal edilmiş ərazilərinə səfər etmiş Kanada Parlamentinin iki üzvünün Kanada hökuməti adından səfər etmədiyi və Kanada hökumətinin bu plan barəsində öncədən xəbərdar edilmədiyi bildirilir".

XİN rəsmisinin sözlərinə görə, Notada həmçinin Kanadanın Azərbaycanın Dağlıq Qarabağ və ətraf regionlarına girişlə bağlı Azərbaycanın siyasətindən məlumatlı olduğu, bu səbəbdən öz vətəndaşlarını işğal edilmiş ərazilərə səfərlərdən çəkinməyə çağırdığı və Azərbaycan hökumətinin razılığı olmadan bu kimi səfərlərin Azərbaycan Respublikasının qanunlarına əsasən qeyri-qanuni olduğu qeyd olunur.

## Dənizdə itkin düşən azərbaycanlıların hər ikisi Rusiya vətəndaşıdır

**Yapon dənizində itkin düşən Rusiyanın "Vostok" balıqçı gəmisindəki azərbaycanlıların hər ikisi Rusiya vətəndaşıdır. Bu barədə APA-nın Rusiya bürosuna Saxalin vilayətinin Nevelsk şəhərindəki Azərbaycan icmasının Ağsaqqallar Şurasının sədri Camalxan Kərimov bildirib. Onun sözlərinə görə, Mübariz Hüseynov Salyan, Ruslan Əlizadə isə Kürdəmir rayonundandır.**

YENİ MÜSAVAT
N 19 (6908) 26 yanvar 2018

**Ölkə müxalifəti bu il də 20 Yanvar şəhidlərini ənənəvi qaydada, pərakəndə şəkildə ziyarət etdi. Hesab olunur ki, əslində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etməyə hazırlaşdığımız ərəfədə nəinki Azərbaycan müxalifətinin, ümumilikdə iqtidarlı-müxalifətli bütün düşərgələrin bir araya gəlməsi arzuolunandır.**

# KXCP sədrindən ilginc açıqlamalar

## **Mirmahmud Mirəlioğlu:** "Heydər Əliyev Gülhanəyə zəng edib mənə başsağlığı verdi"

*KXCP sədri Mirmahmud Mirəlioğlu "Yeni Müsavat"ın bununla bağlı suallarını cavablandırdı:*

***- Mirmahmud bəy, bu günlərdə müsbət qarşılanan bir məsələ oldu. Belə ki, YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbərin xəstəxanada yatdığı zaman onun yaxınlarına "keçmiş olsun" dedi. Həmçinin müalicə üçün dövlətin gərəkən addımı atmağa hazır olduğunu açıqladı. Bu isə qardaş Türkiyə nümunəsini xatırlatdı və təqdir olundu. Siz bu faktı necə qarşıladınız? Necə bilirsiniz, iqtidar və müxalifət arasında təmaslara ehtiyac varmı?***


Mirmahmud Mirəlioğlu

- Çox böyük ehtiyac var. Ancaq onu da hakimiyyət görə bilər. Siz soruşmasaydınız - yəni mən konkret olaraq sizi, "Yeni Müsavat"ı yox, Azərbaycan mediasını nəzərdə tuturam - Siyavuş Novruzov bununla bağlı özündən cavab verməzdi ki. Odur ki, sizin gördüyünüz işlər kifayət qədərdir. Bu, təkcə Türkiyə nümunəsi deyil, həm də Azərbaycan nümunəsidir. Xatırladım ki, zamanında rəhmətlik Nəcəf bəyin müalicəsi üçün Azərbaycan hakimiyyəti kifayət qədər və külli miqdarda para xərclədi. Yəni onun müalicəsinin maddi tərəfini təmin etdi, bu işin içində varam, bilirəm. Allah bütün xəstələrə, İsa bəyə də şəfa versin. Siyavuş Novruzovun da məsələyə münasibəti təbii ki, şəxsən özünün münasibəti deyildi. Çox təqdirəlayiqdir, sırf insani münasibətdir, siyasi münasibətdir və çox normaldır. Yəni insan belə olmalıdır. Mən də onu oxuyanda nəyin necə olmasından asılı olmayaraq, Heydər Əliyevin Gülhanəyə zəng edib, Elçibəylə bağlı mənə başsağlığı verməsini xatırladım. Yəni burada sırf insani məsələlərdir və qeyri-adi bir şey yoxdur. Əslində kim olursa-olsun belə də olmalıdır.

***- Bəs "Cümhuriyyət ili"ndə iqtidar və müxalifət arasında Qarabağla bağlı, yaxud digər məsələlər ətrafında birgə müzakirələr keçirmək mümkündürmü?***

- Bəli. Bu il Cümhuriyyətin 100 illiyi olduğuna görə Azərbaycan hakimiyyətinin o qədər geniş imkanları var ki, indiyəcən sərgilənən münasibətlər, siyasət istiqamətindən bütün məsələlərin hamısının üstündən xətt çəkə bilər, qorxulu bir yuxu kimi bunu unuda bilər və bu işləri görə bilər. İstiqlalçı millət vəkillərinə münasibətdən tutmuş, siyasi məhbuslara qədər... Yəni Cümhuriyyətin 100 illiyinə layiq işlər görməyə qərar verə bilər. Hətta mən deyərdim ki, Azərbaycan hakimiyyəti bir az da irəli gedə bilər, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyində Azərbaycan Xalq Cümhuriyyətinin bərpasını tamamlaya bilər.

***- Nəyi nəzərdə tutursunuz?***

- Biz bərpanı tam etməmişik. 1991-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti bərpa olunanda, Müstəqillik haqqında Konstitusiya Aktı qəbul olunanda - Konstitusiya Aktının müddəalarında bu, var, amma gerçəkləşməyib - təkcə atributlarımızı bərpa etmişik, mahiyyət isə qalıb. Azərbaycan Xalq Cümhuriyyəti parlamentli respublika idi. O, ayrı məsələdir ki, 25 nəfərlə o adamlar bu respublikanı necə idarə edib və s. Amma parlamentli respublikanı Azərbaycanda bərpa edə bilər. Azərbaycanda haqsızlığı aradan qaldıra bilər. Bakıdan bir neçə km-lik məsafədə qaz yoxdur, amma biz Avropanı, elə bu yaxınlarda bəlli oldu ki, Bolqarıstanın neçə faizinisə qazlaşdıracağıq. Mən inanmıram ki, Azərbaycan hökumətinin yüksək ranqında bu gün 7-8 partiyanın bir arada hərəkət etməsinə mane olmaq tapşırığı verilib ki, 20 Yanvar şəhidlərini birgə ziyarət etməyin, hökumət bundan narahatdır və s. Bu cür siyasətə son qoymaq və normal mühit, şərait yaratmaq üçün addımlar atmaq olar.

***- Hakimiyyət sizi Cümhuriyyət tədbirlərinə dəvət etsə, qatılarsınızmı? Yaxud siz tərəfdən analoji dəvət olacaqmı iqtidar partiyasına?***

- Biz Qarabağ Forumu keçirəcəyik və medianı, mütəxəssisləri, ziyalıları, siyasətçiləri dəvət edəcəyik. Azərbaycan hökuməti isə bundan böyük və bundan təsirli tədbir keçirə bilər. Çünki bütün ıcaqlar onun əlindədir. Bəli, Qarabağ probleminin həlli ilə də bağlı məsələyə münasibət bildirmək üçün bütün siyasi düşərgəni bir araya gətirə, parlamentdə normal müzakirə təşkil edə bilər. Amma bu müzakirələrin əvvəlkilərdən bir az fərqli cəhəti olmalıdır ki, real iş görülsün, Cümhuriyyətin 100 illiyində Qarabağ probleminin həlli istiqamətində konkret addım atılsın. Onunla da bağlı bizim 2008-ci ildə hakimiyyətə təqdim etdiyimiz paket var. Bu paket Qarabağ probleminin həlli ilə bağlıdır. Bunu daha da təkmilləşdirib hərbi doktrina səviyyəsində qəbul etmək mümkündür. Məncə, hakimiyyət istəsə, bundan yararlana bilər.

Məsələn, hakimiyyət elə 100 illikdə Məhəmməd Əmin Rəsulzadənin Bakıda bir böyük heykəlini qoysun, konkret adın əbədiləşdirilməsi istiqamətində işlər görsün, bu da təqdir olunsun. Tədbirlərə dəvəti əslində ilk olaraq hakimiyyətdən gəlməlidir ki, müxalifət də bunun fərqində olsun və bu addımları atsın.

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Avropanın rəsmi Bakıya "kursu dəyişin" şərti - reaksiyalar

## **Bəxtiyar Sadıqov:** "Azərbaycandan öz kursunu dəyişməyi tələb etməsi mənasızdır"
## **Səidə Qocamanlı:** "Bu problemləri elə həll etmək lazımdır ki, aqressivlik olmasın"


Bəxtiyar Sadıqov


Səidə Qocamanlı

**Avropa Şurasının insan haqları üzrə yeni komissarı seçilib. Modern.az xəbər verir ki, Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında keçirilən səsvermənin nəticələrinə əsasən bu posta Dünya Miyatoviç seçilib.**

Xanım komissardan əvvəl Avropa Şurasının insan haqları üzrə komissarı olan Nils Muyjnieksin "Turan"ın müxbiri ilə söhbətində Azərbaycanla bağlı səsləndirdiyi bəzi fikirlər ölkəmizdə ciddi etiraz doğurub. Jurnalist Əfqan Muxtarlıya oxunan 6 illik cəzanı pisləyən, REAL sədri İlqar Məmmədovun azad edilməsini tələb edən Nils Muyjnieksin Azərbaycan qarşısında şərt qoyub. O bildirib ki, Bakı Avropa ilə münasibətləri yaxşılaşdırmaq istəyirsə, kursu dəyişməlidir.

Onun bu fikirlərinə fərqli reaksiyalar var.

**"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov** Azərbaycanın kursu dəyişməyə dəvət edilməsinin Avropa Şurasının hələ də ikili standartlardan çıxış etdiyini göstərdiyini söylədi: "Azərbaycanın özünün kursu var. Bu kurs Heydər Əliyev kursu adlanır. Eyni zamanda bu kurs 12 noyabr 1995-ci il konstitusiyasında nəzərə alınıb və ümumxalq referendumu, səsverməsi ilə qəbul olunub. Müstəqil Azərbaycan da bu kursla inkişaf edir. Bu da fundamental demokratiyanın prinsiplərinə sadiqdir, insan haqlarının qorunması, vətəndaş cəmiyyətinin, söz və ifadə azadlığının təmin olunmasıdır. Azərbaycan bu kursda öz milli maraqlarına uyğun addım atır. Beynəlxalq qurumlar və dövlətlərlə münasibətlər qurularkən bu kursa sadiqlik var. Azərbaycan yalnız öz milli və dövlət maraqlarını əsas götürür. Bu kursdan nə Azərbaycan xalqının, nə də dövlətinin dönmək fikri yoxdur. Biz işğal olunmuş ərazilərimizi azad etmək yolunu tutmuşuq. Beynəlxalq qurumlar qəbul etdikləri qərarlara əməl etmirlər. Təkcə BMT-nin 4 qətnaməsini xatırlatmaq kifayət edər. Öz sənədlərinə məhəl qoymurlar, yalnız Azərbaycana irad tutmaqla məşğuldurlar. Biz yaxşı bilirik ki, Avropa Şurasının qərarları tövsiyə xarakteri daşıyır. Azərbaycana qarşı münasibətdə bunlar hökmlə çıxış etmək istəyirlər. Ölkəmiz nə edirsə, öz maraqları, demokratiya, xalqının maraqlarını təmin etmək naminə edir. Bu isə kimlərisə qane etmir. Çalışırlar ki, Azərbaycan özünün deyil, başqa dövlətlərin maraqlarını üstün tutsun. Avropa Şurası və digər beynəlxalq qurumlar ikili standartları əllərində tutaraq, başqa dövlətlərə münasibətdə deyil, Azərbaycana qarşı münasibətdə daim qərəzli mövqe tuturlar. Heç bir əsası olmadan anti-Azərbaycan şəbəkəsinin verdikləri köhnə arayışlar əsasında bunlar rəylər verirlər. Görünür, bunlar onları qane edir. Cənab prezident iki gün öncə Davosda olarkən mətbuat və söz azadlığı ilə bağlı verilən suala cavab verəndə bütün bunlara çox dəqiq və aydın şəkildə cavab verdi, məsələnin mahiyyətini aydınlaşdırdı. Yaxşı olardı ki, ikili standartlardan əl çəkilsin. İndiyə qədər kimsə Azərbaycanla təzyiq dili ilə danışıbsa, ölkəmizə nəyisə diktə etmək istəyibsə, uğursuzluğa düçar olub. Yaxşı olardı ki, onlar qərəzsiz, obyektiv olsunlar, Azərbaycanın ən mühüm probleminin həllində ona kömək etsinlər. Əgər Azərbaycanda hansısa bir sahədə nöqsan görürlərsə, bunu dostcasına yanaşıb, bu şəkildə də sözlərini desinlər. Hansısa bir nöqsan olanda biz özümüz maraqlıyıq ki, onu sürətlə aradan çıxaraq ki, inkişafımıza mane olmasın. Belə bir xeyirxah yanaşma ilə həm bizə kömək edərlər, həm də öz hörmətləri artar. Amma hökmlə danışmaq, hətta Azərbaycandan öz kursunu dəyişməyi tələb etməsi mənasızdır, bunlar heç bir effekt verməyəcək".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı bildirdi ki, Azərbaycan Avropa Şurasına daxil olandan üç komissarla çalışıblar:** "Artıq seçilən 4-cü komissarla işləyəcəyik. Üçüncü komissar olan Muyjnieks daim Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilib. Ondan əvvəlki iki komissar ölkəmizə gəlib ümumi vəziyyətlə tanış olandan, eləcə də siyasi məhbuslarla görüşəndən sonra olan problemləri həll etmək yollarını elə aparırdılar ki, biz bunun müsbət nəticələrini az vaxt ərzində görürdük. Nəticədə kifayət qədər də böyük işlər görülürdü. 716 nəfərlik vaxtilə siyasi məhbus siyahımız var idi. Onların işlərinin böyük bir qisminin həll olunmasında bu şəxslərin müstəsna xidmətləri olub. Onlar danışmağı bacarırdılar. Muyjnieks komissar olduğu müddətdə Azərbaycanla daim amiranə dillə danışıb. Azərbaycana qarşı bu cür cümlə işlətməklə nə demək istədiyini, hər halda, açıqlasın. Azərbaycanda insan hüquqları ilə bağlı problemlər var. Bu problemlərlə biz də məşğuluq. Bunlar çox ciddi problemlərdir və bunu bilməmiş deyilik. Bu problemləri elə həll etmək lazımdır ki, aqressivlik olmasın. Ölkəni aşağılamaqla problem həll olunmur. Dunya Miyotoviçə böyük ümidlərimiz var. O, Azərbaycanı yaxşı tanıyır, problemləri yaxşı bilir. Ölkəmizdəki söz azadlığı ilə bağlı kifayət qədər məlumatlıdır. Hər halda, bundan sonra onunla olacaq görüşlərimizdən sonra o, Azərbaycanda olan problemlərin aradan qaldırılmasına var gücü ilə çalışacaq. Ümid edirik ki, Avropa İnsan Hüquqları komissarı kimi müsbət imici yenidən geri qaytaracaq".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 19 (6908) 26 yanvar 2018



# Söz adamı söz deyir, söz-söhbət olur

Samir SARI

**15-20 il olar ki, jurnalist Aqil Abbasla bir telefon dostluğumuz var. Qəzetdə, saytda gedən hansısa yazım ağsaqqal həmkarımın xoşuna gələndə, mütləq zəng edər, yazı barədə xoş söz deyər, mövzuya uyğun bir lətifə və ya bir məzəli əhvalat danışar, sağollaşar. Onun hər zəngi mütləq kefimi kökəldər.**

Yəni dediyim odur ki, Aqil Abbas pozitiv adamdır. Üstəlik, qarabağlılar demişkən, söz kanıdır, gedən proseslərin, baş verən hadisələrin adını düzgün və unikal şəkildə qoya bilir.

Özü də qeyd edim ki, ölkənin yarısına qonaqlıq vermiş olsa da, mənə xüsusi qonaqlıq-zad verməyib *(bir dəfə "Ədalət"in yubileyinə dəvət etməsindən başqa)*. Bunu ona görə yazıram ki, birdən kimsə fikirləşər, ustad jurnalist bir qonaqlığa özünü müdafiə etdirmək istəyir. Elə şey yoxdur. Sadəcə, bizimki iki yazı-pozu adamının dostluğudur - ürəkdən tikan çıxaran mətnlər olanda rəy bölüşürük, vəssalam.

Neçə ildir ki, görürəm, həmkarımı sosial şəbəkədə vaxtaşırı dilə-dişə salır, adını hallandırır, istehza hədəfi etməyə çalışırlar.

Onu da deyim ki, Aqil Abbas ironiyanın kitabını yazan adamdır, ölkə mediasında ondan çox məzəli əhvalatlar, lətifələr bilən adam yoxdur, istəsə hərəyə bir şəbədə qoşmağı bacarar. Yəni bəzi adamlar qılınc düzəldənin üstünə qəməlti ilə gedirlər. Bu heç.

İkincisi, hiss olunur ki, deputat olandan sonra adamın üstünə projektor işığı tuşlayıblar, nə deyirsə, desin, sözünün başına ip salırlar. Hərə bir söz yazır, at ürkür, örkən aparır, tank izi ZTR izinə qarışır.

3-4 il əvvəl bir soğan söhbəti vardı, hamınızın xatirində olar. Aqil müəllim demişdi ki, kişi xeylağı bekar oturmaqdansa, getsin, məsələn, soğan əksin.

Neçə ildir bu soğan söhbəti davam edir. Söz-sözü gətirən kimi, bəzi feysbuk istifadəçiləri başlayırlar soğan qabığı soymağa. Qardaşlar və bacılar, bunu artıq əzbərləmişik. Yəni bizim başqa, türkün sözü, mizah *(yeri gəlmişkən, bu söz bizdəki "məzhəkə"ni qohumudur)* predmetimiz yoxdurmu? Nəhayət, bu soğanı qurtaraq, getsin.

Xoşbəxtlikdən, cənab deputat vaxtaşırı nəsə deyir. Hətta adi şeylər desə belə, söz olur, söhbət olur. Məsələn, axırıncı dəfə müəllim deyib ki, Gürcüstanda ona görə rüşvət yoxdur ki, orada pul yoxdur.

İndi hay-küy başlayıb. Vallahi, bu sözü hansısa müxalifət lideri desəydi, deyərdilər ki, siz ifadənin alt qatına baxın, görürsünüzmü, necə cəsur fikirdir, adam bu sözlə demək istəyir ki, Gürcüstanda pul və rüşvət yoxdur, amma bizdə ikisi də var. Korrupsiyanı belə ifşa edərlər-zad.

Bu sözdə isə böyük həqiqət var. Gürcüstanda bizdəki neft milyardları yoxdur. Olsaydı, onların məmurları da milyard-milyard oğurlayardılar, milyon-milyon rüşvətlər, qoşa-qoşa villalar tikdirər, qaraj-qaraj "Gelandevagenlər" alardılar.

Söz yox, bizdə qaydadır, həmişə qonşuları, uzaq məmləkətləri idealizə edər, cənnət-filan adlandırarıq, özümüzü aşağılayar, yerdən-yerə vurarıq. Amma SSRİ-də yaşayan xalqların heç birinə sirr deyil ki, keçmiş ittifaqda, indiki postsovet məkanında ən çox oğrunun çıxdığı respublika məhz Gürcüstandır. Küçələrdə "vor-zakon" qaynaşır. Hər məhəllədə, az qala iki evdən birində bir avtoritet var. Bizdə şəhərin dörd tərəfini, eləcə də paytaxtın mərkəzini sarmış yarmarka və mollarda çalışan ticarətçilərin sayı var, orda "vor-zakon"ların, cibgirlərin, evyaranların, dələduzların sayı yoxdur. Hətta son illərdə ölkəmizdə baş verən qalmaqallı cinayət işlərində adı keçən killerlərin Gürcüstandan gəldiyi ortaya çıxmadımı?

Dediyim odur ki, deputatın dediyini qəribçiliyə salmayın. Gürcüstanda da 150 milyard neft pulu olsaydı, ən azı 5-6 dənə milyarder-oliqarx çıxardı.

Həm də keçmiş prezident Saakaşvili bir "pis ənənə" qoyub gedib, hansısa nazir kötükləşməyə, pullaşmağa başlayan kimi vəzifəsindən vurub çıxarırlar, adam milyarder ola bilmir, eləcə milyonçu qalır.

Bu baxımdan heç olmasa bir dəfə Aqil Abbasın dediyi sözə bu cür prizmalardan baxın, görəcəksiniz ki, pis söz demir.

***P.S.** Belə anlaşılır ki, növbəti seçkilərdə Abbasov Aqil Məhəmməd oğlu namizədliyini irəli sürməyəcək. Sırf qulağı dinc olsun deyə.*



# Yeni dartışma mövzusu: Elçibəyin andiçmə mərasiminin ssenarisini kim yazıb?

## Ali Sovetin keçmiş məmurundan, prezidentin köməkçisindən və sabiq dövlət katibindən açıqlamalar

**Bu günlərdə moderator.az-a müsahibə verən Azərbaycan SSR Ali Sovetinin sabiq sədri mərhum Elmira Qafarovanın müşaviri kimi çalışmış Cahangir Nəcəfov Əbülfəz Elçibəyin prezident olaraq andiçmə mərasiminin ssenari müəllifi olduğunu bildirib.**

Ali Sovet sədrinin müşaviri vəzifəsinin kifayət qədər məsuliyyətli bir iş olduğunu bildirən C.Nəcəfov İsa Qəmbər və Pənah Hüseynin də onu yaxşı tanıdığını vurğulayıb: "Haqqımda daha çox şey bilmək istəyən qoy sabiq spiker İsa Qəmbərdən soruşsun. Kim Azərbaycana-xəzinəsi boş ölkəyə 3 milyon dollar gətirdib? Qoy keçmiş baş nazir Pənah Hüseynovla o dövrkü prezident seçkiləri ərəfəsində mənim rolum haqda söhbət etsin. Rəhmətlik Elçibəyin inauqurasiyasının ssenarisini də mən hazırlayıb yazmışam..."

**Əbülfəz Elçibəyin köməkçisi işləmiş Oqtay Qasımov** "Yeni Müsavat" açıqlamasında o dövrdə Milli Məclisdə Cahangir Nəcəfov adlı adamın işlədiyini eşitdiyini dedi. Amma bildiyinə görə həmin şəxs o qədər böyük səlahiyyətə malik adam olmayıb: "Əbülfəz Elçibəyin andiçmə mərasiminin təşkili işləri barədə isə mən dəqiq bir söz deyə bilmərəm. Çünki mən rəhmətlik Əbülfəz Elçibəyin andiçməsindən 1 ay sonra prezidentin köməkçisi işləməyə başlamışam".

**Elçibəy iqtidarı zamanında dövlət katibi və baş nazir vəzifələrində çalışmış Pənah Hüseyn isə bildirdi ki, Cahangir Nəcəfovu Ali Sovetin kifayət qədər fəal işçilərindən biri kimi tanıyıb:** "Cahangir Nəcəfov bir sıra məsələlərdə fəallıq göstərib. Məsələn, 20 Yanvar faciəsinin təhqiqi işində, Ali Sovetin 20 Yanvar hadisəsindən sonrakı gündə sessiyasının keçirilməsi işində fəaliyyəti var idi. Təbii ki, o, texniki xarakterli işlərin təşkilində iştirak edirdi. Yəni hansısa siyasi təşəbbüskarlıq göstərmirdi, Ali Sovetin məmuru idi. Şəxsən mənim xatirimdə Cahangir Nəcəfovun rolu müsbət qalıb. O ki qaldı Əbülfəz bəyin andiçmə mərasiminə, mən andiçmə mərasimində iştirak etməmişəm. Çünki həmin gün mən və baş nazirin müavini Vahid Əhmədov döyüş bölgəsində-Ağdam istiqamətində Naxçıvanikdə olmuşuq. Ümumiyyətlə, mənim andiçmə mərasiminin hazırlanmasında iştirakım olmayıb. İkincisi, Əbülfəz Elçibəyin təmtəraqlı inauqurasiya mərasimi keçirilməyib. Çox sadə, xüsusi bir ssenari olmayan, təmtəraqdan uzaq andiçmə keçirilib. Andiçmə mərasiminin keçirilməsi ölkə qanunvericiliyində nəzərdə tutulur. Qanunun həmin tələbi sadə şəkildə yerinə yetirilmişdi. Xüsusi bir ssenari yazılmamışdı. Əbülfəz bəy təmtəraqlı inauqurasiyanın əleyhinə olduğunu öncədən bildirmişdi. Odur ki, çox sadə bir tədbir keçirilmişdi. Andiçmə zamanı Elçibəyə rəğbəti olan bəzi şəxslərin özfəaliyyəti olmuşdu.

Ola bilsin ki, Əbülfəz Elçibəyin Ali Sovetdə andiçmə mərasiminin texniki, təşkilati işində Cahangir Nəcəfov Ali Sovetin işçisi olaraq iştirak edib".



Cahangir Nəcəfov

❑ **Etibar SEYİDAĞA,**
❑ **"Yeni Müsavat"**

# Azərbaycan müxalifətinin Yavlinski və Sobçak seçimi

## Putinin iki əsas rəqibindən hansına Bakıdan dəstək var?

**Rusiyada mart ayında keçiriləcək prezident seçkisində prezident Vladimir Putinin rəqibləri sırasında nisbətən aktivliyi və reytinqi ilə fərqlənən namizədlər Qriqori Yavlinski və Ksenya Sobçakdır. Rusiya Dumasının deputatı, Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski artıq onların hər ikisinin Krım məsələsində mövqelərinə görə cinayət məsuliyyətinə cəlb olunmasının lazım olduğunu açıqlayıb: "Onları Rusiyanın ərazi bütövlüyünü pozduğuna görə məsuliyyətə cəlb etmək olar. Rusiya prezidentliyinə namizəd Qriqori Yavlinski və Kseniya Sobçak həbs edilməlidir".**

Azərbaycan cəmiyyətinin və müxalifətinin Rusiyadakı siyasi prosesləri, o cümlədən seçkini izlədiyi məlumdur. Bəs müxalifətin Qriqori Yavlinski və Ksenya Sobçaka münasibəti necədir?

**KXCP sədrinin müavini Xəzər Teyyublu** bildirdi ki, Rusiyada keçiriləcək seçkilər bu dövlətin indiyə qədər keçirdikləri seçkidən fərqlənməyəcək: "İndi dünyada seçki texnologiyası və kampaniyası rəngarəngliyinə görə fərqlənən budur ki, favorit namizədlərdən biri qadın olur. Lakin Ksenya Sobçak zəif siyasətçidir, top modeldir, məhdud çevrəsi var. Bu namizəddən fərqli olaraq Yavlinski daha üstün ola bilər. Ölkələrində iqtisadi reformalar təkliflər paketini irəli sürüb. Amma Putin hakimiyyətini qoruyacaq".

**Ümid Partiyasının sədr müavini Tamilla Qulami isə dedi ki, Putin konkret olaraq, heç bir əziyyət çəkmədən növbəti dəfə prezident kürsüsünə oturacaq:** "Putinə ən ciddi rəqib olacaq namizəd Aleksey Navalnı məhkumluğu üzərindən götürülmədiyi üçün seçkidən kənarda qaldı. Daimi namizəd Jirinovski haqda bir fikir söyləməyə dəyməz. Digər namizədlərin içində isə nisbətən fərqlənən iki namizəd var. Bunlardan "Yabloko" Partiyasının lideri Qriqori Yavlinski və teleaparıcı Kseniya Sobçakdır. Nə Yavlinski, nə də Sobçak Putinə ciddi rəqib sayıla bilməz. Hətta Sobçak haqda Kremlin öz layihəsi olması ilə bağlı fikirlər də səslənib. Rusiyada prezident seçkilərinin şəffaf, demokratik keçirilməsini istərdik. Bu hadisənin regiona çox ciddi təsiri ola bilərdi. Amma gedişata nəzər salarkən təəssüflə qeyd edim ki, yaxın 5 il ərzində regiondakı siyasət dəyişməz olaraq qalacaq".



Qriqori Yavlinski



Ksenya Sobçak

**VHP İcra Aparatının rəhbəri Samir Əsədli qeyd etdi ki, Aleksey Navalnının namizədliyi qeydə alınsaydı, hakimiyyətə əsas rəqib o olacaqdı və Azərbaycanın demokratik qüvvələri onun qələbəsində maraqlı idi:** "Yavlinski və Sobçak haqqında isə birmənalı fikir yoxdur. Biz Rusiyada demokratik seçki keçirilməsini, demokratik hakimiyyət formalaşmasını arzu edirik. Çünki Rusiyada demokratik seçkinin keçirilməsi Azərbaycanın da xeyrinə olar".

**AMİP katibi Əli Orucov isə bildirdi ki, onların xüsusi müdafiə etdiyi namizəd yoxdur: "Bu seçkilərin favoritinin hazırkı dövlət başçısı Putunun olmasına heç kəs şübhə etmir. Digər namizədlərin uğur qazanacağı inandırıcı deyil. Müxalifət düşərgəsinin digər keçmiş sovet respublikalarına münasibəti Rusiya ilə müqayisədə fərqlidir. Konkret olaraq hansı namizədin dəstəklənməsi haqqında fikirlərə rast gəlinməyib. Bizim üçün vacib olan fərdlərin deyil, ümumilikdə demokratiyanın qalib gəlməsidir. Rusiyada demokratiya qalib gələrsə, bu o deməkdir ki, Azərbaycanın da bu yolda qarşısında ciddi maneə qalmır".**

❑ **Etibar SEYİDAĞA,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 19 (6908) 26 yanvar 2018

# ABŞ-ın ölkəmizdəki səfirinin fəallaşmasının pərdəarxası

**Amerikanın Azərbaycandakı səfiri Robert Sekutanın son günlərdə fəallaşması bəzi müzakirələr doğurub. Əvvəlcə səfirin vergilər naziri Mikayıl Cabbarov və ardınca da Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ilə görüşməsi diqqəti cəlb edib.**

## Ekspert: "Son bir neçə həftədə Amerikada Azərbaycanla münasibətlərə xələl gətirən bir neçə addım atılıb"

Bu görüşlərin ardından Sekutanın geri çağırıla biləcəyi və bunun üçün də onun bu tipli görüşlərə başladığı barədə iddialar ortaya çıxıb. Bu müzakirələrdə bir il öncə Amerika prezidenti Donald Trampın inauqurasiya mərasimindən sonra əvvəlki prezident Barak Obamanın dövründə təyin edilən səfirləri geri çağıracağı ilə bağlı yayılan xəbərlərə istinad olunur və həmin proseslərin məhz indi başladıla biləcəyi vurğulanır. Bu mərhələdə də Sekutanın ölkəsinə dönəcəyi bildirilir.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, Sekutanın son günlərdə görüşlərinin intensivləşməsinin bir neçə səbəbi var:** "Birinci səbəb odur ki, son bir neçə həftədə Amerikada Azərbaycanla münasibətlərə xələl gətirən bir neçə addım atılıb. Dövlət Departamenti sənəd yayaraq Azərbaycanın ABŞ vətəndaşları üçün təhlükəli olduğunu bildirib, ardınca bir neçə konqresmen Dağlıq Qarabağ separatçıları ilə birbaşa təmasların qurulmasının vacibliyini gündəmə gətirib. Aydındır ki, bunların fonunda Azərbaycanda ABŞ-ın tənqidi artıb. Yəni bu gedişat iki ölkə arasındakı münasibətlərə xələl gətirir. Odur ki, Sekuta fəallaşmağa qərar verib. Digər tərəfdən, Sekutanın son günlər bəzi müxalifət təmsilçiləri ilə görüşləri hakimiyyət nümayəndələrində suallar yaradıb. Sekuta rəsmilərlə görüşüb onları sakitləşdirməli idi. Ob yanvarın 24-də baş nazirin müavini Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovla görüşüb. Görüşdə əvvəlcə ABŞ-ın məcburi köçkünlərə dəstək mövzusu müzakirə olunub. Qeyd edilib ki, 24 ildə beynəlxalq humanitar təşkilatlar Azərbaycandakı qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə 1.4 milyard dollar ayırıb, bunun da 820 milyon dolları ABŞ-ın payına düşür. Bu, ABŞ Dövlət Departamenti, Müdafiə və Kənd Təsərrüfatı nazirliklərinin ayırdıqları vəsaitdir. 1993-2000-ci illərdə ABŞ-ın Azərbaycanda humanitar və inkişaf proqramlarının həyata keçirilməsi sahəsində 33 təşkilatı olub, hazırda 6 beynəlxalq humanitar və inkişaf təşkilatı fəaliyyət göstərir. ABŞ təşkilatları Abşeron rayonunda məcburi köçkünlərlə bağlı yeni bir layihənin başlanmasını nəzərdə tutur. Görüşdə səfir Dağlıq Qarabağ münaqişəsindən də danışıb. Səfir ABŞ-ın münaqişənin həllinə ciddi yanaşdığını, rəsmi Vaşinqtonun münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu vurğulayıb. Elə bu görüşün özü və səslənən rəqəmlər ondan xəbər verir ki, ABŞ Azərbaycana tərəfdaş kimi baxır və maliyyə dəstəyini əsirgəmir. Belə baxanda Rusiya qaçqınlarımıza və məcburi köçkünlərimizə nə vaxt kömək edib, hansı yardımı edib? Belə bir hal yoxdur. Amerikanın isə Azərbaycana dəstək təcrübəsi var. Sadəcə, gərək Vaşinqtondakı diplomatlar və konqresmenlər Azərbaycanın Amerikanın regional siyasətinə verdiyi dəstəyi də unutmasınlar. Əfqanıstana yardımı və maliyyəni Azərbaycan göndərir, Ermənistan yox. Bölgənin Rusiyadan yan keçən enerji və nəqliyyat layihələrinin təşəbbüskarı da Ermənistan deyil, Azərbaycandır. Bunu gərək unutmasınlar, ermənilərə simpatiyalarını gizlətməzkən, Ermənistanın hansı dövlətin müttəfiqi olduğunu da xatırlasınlar".



Robert Sekuta

**Politoloq Nəzakət Məmmədova Amerikada səfir təyinatının prosedurlarının çətinliyindən söz açdı:** "ABŞ-ın səfir təyinatı bir qədər mürəkkəb prosedurdur və bəzən Ağ Evlə Konqres arasındakı qarşıdurmada siyasi manipulyasiya alətinə çevrilir. Lakin son illərdə Azərbaycana təyin olunan səfirlər və ümumiyyətlə, səfirlər məsələsində bir qədər fərqli situasiyalar meydana çıxıb. Brayza Senatda təsdiq olunmadı və Obamanın birbaşa əmri ilə ölkəmizə səfir təyin olundu. Morninqstar isə bəzi iddialara görə, öz postunu vaxtından əvvəl təhvil verdi. Tramp hakimiyyətə gəldikdən sonra isə Obamanın təyin etdiyi 80-ə yaxın səfiri geri çağırdı. Sekutadan əvvəlki səfir Morninqstarın AzadlıqRadiosuna müsahibəsində insan hüquqları məsələsi ilə bağlı bəzi fikirlər var idi. Hətta onun vəzifəsini vaxtından əvvəl tərk etməsi bununla əlaqələndirilməyə çalışılırdı. Lakin ABŞ Azərbaycana çox önəm verir və buradan gedən səfirlər bir qayda olaraq məsul sahələrə göndərilir və yaxud böhran regionlarına təyin olunurlar. Ümumiyyətlə, bir çox ölkələrdə, o cümlədən ABŞ diplomatik xidmətində belə bir qayda var ki, müharibə, silahlı münaqişə, vətəndaş müharibəsi və s. bölgələrdə xidmət edən diplomatlar təhlükəli işlə məşğul olan işçilər kateqoriyasına aid edilirlər, onların maaşı daha yüksək olur, xidmət illəri güzəştli əsaslarla hesablanır və s.

Sekutanın fəaliyyətində isə indiyədək bir problem hər halda cəmiyyətə görünməyib. Onun vergilər naziri ilə görüşməsi yəqin ki, yeni təyinatla bağlıdır. Şeyxülislamla görüşü isə bununla bağlı ola bilər ki, ABŞ həm dini mühiti daima diqqətlə izləyir, eyni zamanda yanvarın sonunda İstanbulda Qüdslə bağlı din xadimlərinin tədbirinin keçirilməsi və burada Şeyxülislam Paşazadənin iştirak etməsi gözlənilir. Görünür, tədbir öncəsi bu məsələlərdə tərəflərin mövqeyi də müzakirə olunub".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# Türkiyənin Ermənistanla sərhədə divar tikməməsinin ilginc səbəbləri

## Ankara həmin divara görə Qərbdən lazımsız ittihamlarla üzləşmək istəmir və...

**Bir müddət öncə məlum oldu ki, Suriya və İranla sərhədində terrorçulardan müdafiə olunmaq üçün hündür sədlər tikən Türkiyə digər qonşu ölkələr - Ermənistan və Gürcüstanla sərhəddə divar inşa etməyəcək. Ancaq yayılan xəbərlərdə bildirildi ki, bununla belə, həmin ölkələrlə olan sərhədləri elektron nəzarət sistemləri ilə təchiz edəcək.**

Qeyd edək ki, keçən ilin yanvarında Türkiyənin Ermənistanla sərhəd boyunca divar tikməyi planlaşdırdığı xəbəri yayılmışdı. Bildirilirdi ki, bu təklif Türkiyənin Müdafiə və Maliyyə nazirlikləri arasında müzakirə olunur. Məlumatda deyilirdi ki, 3 metr hündürlüyündə olacaq beton bloklardan ibarət divar Türkiyənin Ərdəhan, Qars və İğdır vilayətləri boyunca ucaldılacaq. Sonradan Ermənistanla sərhədboyunca divarın tikilməsindən nə səbəbə vaz keçilməsi təbii olaraq suallar doğurur.

**Politoloq Elçin Mirzəbəyli də "Yeni Müsavat"a açıqlamasında təsdiqlədi ki, ötən ilin iyun ayında Suriyadan sonra İran və Ermənistanla sərhəddə də 3 metr hündürlükdə beton divar hörüləcəyi barədə məlumat yaymışdılar:** "Amma rəsmi mənbələr xəbəri nə təkzib, nə də təsdiq etdilər. Ola bilsin ki, belə bir plan var. Amma hazırda bu planın gerçəkləşdirilməsi Türkiyə üçün prioritet məsələ deyil. Çünki hazırda Türkiyəyə ən böyük təhlükə Suriyadan gəlir. Suriya ilə sərhəddə divar hörülməsi həm qanunsuz miqrasiyanın, həm terror qruplarının Türkiyə ərazisinə keçməsinin qarşısının alınmasına, həm də sərhəd bölgəsində yaşayan insanların kiçik çaplı silahların hədəfi olmaqdan qorunmasına xidmət edir. Bu baxımdan da Suriya ilə sərhəddə divar hörülməsi Türkiyə üçün alternativi olmayan bir məsələdir".



**E.Murzəbəyli bildirdi ki, Türkiyəyə İran ərazisindən əsasən qaçaqmalçıların keçməsi və narkotiklərin daşınması təhlükəsi var:** "İranın Türkiyə ilə həmsərhəd bölgələri tarixi Azərbaycan əraziləridir və bu ərazilərdə də əsasən Azərbaycan türkləri yaşayır. İran rejimi bu ərazilərə, xüsusilə də Urmiyə bölgəsinə kürdləri köçürməklə buradakı demoqrafik vəziyyəti dəyişməyə çalışsa da, ərazinin əsasən maldarlıqla məşğul olan kürdlər üçün əlverişsiz olması və Azərbaycan türklərinin ciddi etirazı bu planın həyata keçirilməsinə imkan verməyib. Azərbaycan türklərinin yaşadığı ərazilərdən Türkiyəyə hər hansı bir təhlükə ola bilməz. Təhlükəli hesab olunan ərazilərdə isə 144 kilometrlik divar çəkilir və bu il başa çatması nəzərdə tutulub. Xatırladım ki, Türkiyənin İranla sərhədi 560 km-dir". **Ermənistana gəldikdə isə, politoloq qeyd etdi ki, bu forpost respublikanın sərhədlərini rus hərbçiləri qoruyur:** "Bu ərazidə baş verə biləcək hər hansı bir təxribata görə də şübhəsiz ki, Rusiya məsuliyyət daşıyacaq. Qeyd edim ki, Türkiyənin Ermənistanla sərhədinin uzunluğu 328 km-dir və çox güman ki, İranla sərhəddə hörülən divar başa çatdıqdan sonra Ermənistanla sərhəddə də divar hörüləcək. Türkiyənin bu məsələdə istisnalar edə biləcəyi inandırıcı deyil. Qeyri-rəsmi mənbələrin verdiyi məlumata görə, Türkiyənin Suriya ilə sərhədə çəkdiyi 911 km-lik təhlükəsizlik divarı 1 milyard türk lirəsinə - təxminən 270 milyon dollara başa gəlib. Hər km 300 min dollar təşkil edir. Ermənistanla sərhədin 328 km. olduğunu nəzərə alsaq, bu ölkə ilə sərhədə təhlükəsizlik divarının çəkilməsinə təxminən 98 milyon ABŞ dollarının sərf olunacağı gözlənilir. Bunlar çox böyük vəsaitlərdir. Ola bilsin ki, təbii relyef Ermənistanla sərhəddə xərcləri azaltsın. Bütün hallarda Türkiyənin bu prosesi ardıcıllıqla həyata keçirmək niyyətində olduğunu düşünürəm".

**"Atlas" Araşdırmaqlar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə "Yeni Müsavat"a bildirdi ki, Türkiyənin Ermənistanla sərhəd divarını inşa etməməsinin səbəbi heç də bu ölkə ilə münasibətlərin normallaşması istəyi ilə bağlı deyil:** "Bəli, əgər gələcəkdə Ermənistan Azərbaycan torpaqlarını boşaldarsa, İrəvan Türkiyə ilə sərhədin açılmasına da ümid edə bilər. İndiki halda isə bu, mümkün deyil. Türkiyə indiki şərtlər daxilində Ermənistanla sərhədi açmayacaq. Sadəcə, Ankara iki səbəbə görə Ermənistanla sərhəddə divar tikməyi lazım bilməyib. Birinci səbəb maliyyədir. Türkiyə divar tikintisinə əlavə maliyyə xərcləmək istəmir". E.Şahinoğlunun fikrincə, ikinci səbəb odur ki, Ankara həmin divara görə Qərbdən lazımsız ittihamlarla üzləşmək istəmir: "Türkiyə rəsmilərinin özləri ABŞ prezidenti Donald Trampı ona görə tənqid edirdilər ki, o, mənasız yerə Meksika ilə sərhəddə divar tikmək istəyir. Ona görə də Ankara Trampın səhvini təkrarlamaq istəmir. Əslində divarı Ermənistan tikməlidir. Çünki Türkiyənin Suriyadakı hərbi əməliyyatı Ermənistanı vahiməyə salıb. Özlərinə sual verirlər ki, görəsən, Türkiyə nə vaxtsa Ermənistana da hərbi müdaxilə edə bilərmi?"

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 19 (6908) 26 yanvar 2018

**Sabiq vergilər naziri Fazil Məmmədovun müşaviri Qüdrət Seyfullayev Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə çağırılıb. Onun istintaqa çağırılması haqda redaksiyamıza bilgiləndirən mənbə deyib ki, sabiq müşavirin istintaqa dəvət olunması 2015-ci ildə Binəqədi rayonunda baş verən dəhşətli yanğınla bağlı olub.**



# Fazil Məmmədovun sabiq müşaviri yanan binaya görə istintaqa çağırıldı

## Qüdrət Seyfullayev və Xaləddin İsgəndərovu 2015-ci ildə həbs etmək istəyiblər, amma...

Qaynağımız deyib ki, hələ 2015-ci ildə bina yanandan sonra 2 şəxsin həbsi haqda qərar verilməsi üçün yuxarılara müraciət edilib. Binadakı yanğından bir neçə saat sonra 2 vəzifəli şəxsin - Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun və binanın poliuretanla üzlənməsini bilavasitə sifariş edən Qüdrət Seyfullayevin həbsə alınması zərurəti ortaya çıxıb. İstintaq faktları rəsmiləşdirərək yuxarılardan hər iki şəxslə bağlı müvafiq qərar verilməsini gözləyib. Həmin gün hətta Binəqədi Rayon İcra Hakimiyyətinin binası yaxınlığına xüsusi istintaq qrupu göndərilib. Qrup üzvləri həbs qərarı veriləndən sonra Xaləddin İsgəndərovu və Qüdrət Seyfulayevi həbs etməli imiş...

Amma yanğından sonra o dövrdə vergilər naziri postunu tutan Fazil Məmmədov dövriyyəyə girib və Qüdrət Seyfullayevlə yeznəsi Xaləddin İsgəndərovu həbsdən qurtara bilib. Bundan sonra Qüdrət Seyfullayev Vergilər Nazirliyində işə götürülərək nazirin müşaviri postuna təyin olunub.

Vergilər Nazirliyi rəhbərliyində baş verən dəyişikliklər yanan binanın üzlənməsi ilə bağlı gizlədilməyə çalışılan faktların üzərindən sirr pərdəsini götürə bilər. Bir müddət əvvəl Fazil Məmmədovun işə götürdüyü 64 vergi məmuru işdən uzaqlaşdırılıb. Onların arasında Qüdrət Seyfullayev də var. Bu vəzifəyə təyinata qədər isə Qüdrət Seyfullayev Fazil Məmmədovun biznes layihələrinin gerçəkləşdirilməsində, təmir-tikinti işlərinin aparılmasında fəal iştirak edib. Fazil Məmmədovun tapşırığına əsasən, Qüdrət Seyfullayevin gerçəkləşdirdiyi təmir-tikinti proyektlərindən biri də Binəqədi rayonunda binaların üzlənməsi olub.



**Ötən saylarımızda bu haqda yazdıqlarımızdan sitat:**

"2013-cü ildə Fazil Məmmədov "desant"ı Qüdrət Seyfullayevi Binəqədi rayonuna yollayıb. Xaləddin İsgəndərov Qüdrət Seyfullayevi Binəqədi Rayon Təsərrüfat Şöbəsinin müdiri vəzifəsinə işə götürüb. Binaların tezalışan poliuretanla üzlənməsini sifariş edən də Qüdrət Seyfullayev olub. Onun bu işlərində köməkçisi isə həmin vaxt Binəqədi Rayon İcra Hakimiyyətində atasının "yerdə qalan məsələlər" üzrə "müavini" Elnur İsgəndərov olub. Qaynağımız bildirib ki, 2015-ci il mayın 19-da Binəqədidə yanan binanın üzlənməsi də Qüdrət Seyfullayevin sifarişi ilə gerçəkləşib. Həmin üzləmə işlərini Fazil Məmmədova məxsus "Synergy Group" MMC-nin nəzdində yaradılmış firmalardan biri maliyyələşdirib. Həmin vaxt istintaq Qüdrət Seyfullayevin izinə düşüb. Məlum olub ki, Binəqədidə yanan binanın üzlənməsinin təşkili, maliyyələşdirilməsi Qüdrət Seyfullayevin üzərindən gerçəkləşdirilib. Yanan binanı da məhz o təhvil alıb. Sənədlərdə məsul şəxs kimi onun adı keçib. O dövrdə Qüdrət Seyfullayev Binəqədi Rayon Təsərrüfat Şöbəsinin müdiri vəzifəsində çalışıb. İşlədiyi müddətdə binanın həmin materialla üzlənməsini sifariş verib, işlərə nəzarət edib və bina üzlənəndən sonra təhvil götürüb".

Yada salaq ki, "yanan bina" işi üzrə məhkəmə istintaqı zamanı Qəzənfər Novruzovun, Nizami Orucovun, Ədalət Rəcəbovun binanın təhvil-təslim aktlarında adlarının olmadığı təsdiqlənmişdi. 6 oktyabr 2016-cı ildə Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən iclasda Ədalət Rəcəbov demişdi ki, binanın üzlənməsinə 2012-ci ilin aprelində başlanıb, Binəqədi Rayon İcra Hakimiyyəti ilə binanı üzləyən şirkət arasında müqavilə bağlanıb. Onu isə vəzifəyə binada üzlənmə işləri başlanandan ay yarım sonra - 2012-ci ilin may ayının sonunda bu vəzifəyə təyin ediblər.

**Məhkəmədəki çıxışından sitat:** "Əgər mən işlər başlanandan sonra vəzifəyə təyin olunmuşamsa, necə razılıq verə və ya verməyə bilərdim? Azadlıq prospektindəki yolkənarı binaların üzlənməsi Dövlət Proqramı çərçivəsində rayon icra hakimiyyətinin sifarişi ilə həyata keçirilib. Müqavilə də podratçı şirkətlə icra hakimiyyəti arasında bağlanıb. Bircə sənəd göstərsinlər ki, hansısa sənəddə mənim üzərimə binanın üzlənməsində yanğın təhlükəsizliyinə nəzarət etmək vəzifəsi qoyulur. Yoxdur belə bir sənəd. Mənim rəhbərlik etdiyim Mənzil Kommunal Təsərrüfat Birliyi Bakı Şəhər İcra Hakimiyyətinə tabe idi. İcra hakimiyyəti isə tamam ayrı qurumdu. Mən başqa bir qurumun işinə necə müdaxilə edə bilərdim? Biz ancaq təmizlik işlərinə baxırdıq. Əgər bina sakinləri istəsə, Səbayel rayonundan hansısa şirkətlə müqavilə bağlayıb onlara təmizlətdirərdilər", - Ədalət Rəcəbov bildirmişdi.

**Həmin gün məhkəmədə Nizami Orucov da ifadə verib. O da deyib ki, binanın üzlənməsi, bununla bağlı sənədlərin hazırlanması, müqavilələrin bağlanmasına onun heç bir aidiyyəti olmayıb.**

Sitat: "Mənim nə sifarişçi, nə podratçı kimi, binanın üzlənməsinə aidiyyətim olmayıb. Dəfələrlə aşağı vəzifəli adam olmuşam, necə deyə bilərdim ki, bu işi gör, yaxud da görmə?! Mən Mənzil Kommunal İstismar Sahəsinin müdiri olaraq, yalnız təmizlik, sakinlərin müvafiq orqanlara müraciətləri ilə bağlı məsələlərlə məşğul olmuşam".

Məsələni mahiyyəti bu idi ki, Qüdrət Seyfullayev və Xaləddin İsgəndərov Fazil Məmmədovun yaxın adamları olduqlarına görə o dövrdə istintaqdan kənar qala biliblər.

Qaynağımız bildirib ki, "yanan bina" işi üzrə istintaq aparılanda Qüdrət Seyfullayev və Xaləddin İsgəndərov barəsində ayrıca icraat aparılıb və baxılmamış saxlanılıb. Hazırda isə "yanan bina" işi üzrə baxılmamış saxlanılan materiallar yenidən nəzərdən keçirilir. Bu isə Fazil Məmmədova 2 yaxın vəzifəli şəxsə heç də yaxşı perspektiv vəd etmir.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Tramp prokuror qarşısına çıxmağa razılaşdı

## Amerikada gözlər bu istintaqa dikilib...

**ABŞ prezidenti Donald Tramp 2016-cı il prezidentlik seçkilərinə Rusiya müdaxiləsi iddiası ilə bağlı andiçmə altında ifadə verməyə hazır olduğunu deyib.**

"Yeni Müsavat" xarici mediaya istinadən xəbər verir ki, amerikalı özəl prokuror və Federal İstintaq Bürosunun (FBİ) eks direktoru Robert Muellerin 2016-cı il prezident seçkilərində Rusiya müdaxiləsi ilə bağlı Rusiya rəhbərliyi və Donald Trampın bir araya gələrək, seçki nəticələrinə təsir göstərdiyi iddiası ilə başladığı istintaq çərçivəsində Amerika prezidenti andiçmə altında ifadə verməyə hazır olduğunu vurğulayıb. O, eyni zamanda seçkilərə Rusiya müdaxiləsini də "əsası olmayan ifritə ovu" adlandırıb. O, sözügedən mövzu ilə bağlı Ağ Evdəki çıxışında "seçkilər zamanı əsla bir anlaşma olmadı" deyib.

Bu arada Trampın vəkilləri Muellerin liderliyindəki istintaq heyəti ilə baş tutacaq sual-cavabın yazılı və ya şifahi olub-olmaması ilə bağlı müzakirələr aparır. Trampsa Muellerin ədalətli olub-olmayacağı ilə bağlı "Ümid edirəm ki, bunu istintaqdan sonra görəcəyik" deyib.



Trampın komandasından olan ABŞ prokuroru Ceff Sessions Mueller tərəfindən istintaqa cəlb edilən ilk adamdır. Amma istintaq çərçivəsində FBİ-yə prezident seçkiləri ilə bağlı yalan ifadə vermə, çirkli pulyuma və ABŞ-ın beynəlxalq anlaşmalarında saxtakarlığa yol vermə, kimi müxtəlif ittihamlardan indiyə qədər Trampın keçmiş beynəlxalq təhlükəsizlik üzrə məsləhətçisi Maykl Flynn, Trampın keçmiş kampaniya rəhbəri Paul Manafort, eləcə də iş yoldaşları Rick Geyts və Corc Papadopoulos günahkar bilinib.

"Düzü, mən bunu səbirsizliklə gözləyirəm", - deyə Donald Tramp jurnalistin "Robert Müllerlə ilə danışmaq istəyirsinizmi" sualına cavab verərək bildirib. "Heç bir sövdələşmə olmayıb, heç bir maneə yoxdur", - deyə, Tramp qeyd edib.

Amma Trampla bağlı səs-küylü olaylar bununla yekunlaşmır. ABŞ prezidenti Koreya şirkəti olan "Samunq"u 50 min mesajın itməsində günahlandırıb. Tramp bu haqda öz twitter səhifəsində status yazıb. Statusda bildirilir: "FBİ əməkdaşları olan Liza Peycin və Piter Strjokun 50 mindən artıq vacib yazışmaları hardadı? Samsunq günahkardı!"

Bundan əvvəl Amerika mediası FBİ-nin və ABŞ-ın ədliyyə nazirliyinin Trampa qarşı "gizli mesajların" silindiyini bildiriblər. Narazılığa və haqlı suallara səbəb olan yazışmalar isə "Rusiya işi" üzrə istintaq işində vəzifədən kənarlaşdırılan xüsusi prokuror Robert Müllerin FBİ-də yüksək vəzifə tutan Piter Strzokun və FBİ-nin hüquqşünası Liza Peycin arasında baş tutan yazışmalardır.

Dünya İqtisadi Forumunda iştirakı gözlənilən ABŞ prezidenti üçün Davosda təhlükəsizlik ikiqat artırılıb. Çünki Trampın İsveçrəyə gələcəyi xəbəri yayılan kimi "İsveçrəyə xoş gəlmədiniz!" aksiyaları da başlayıb. Bir tərəfdən imza kampaniyaları toplandığı halda, digər tərəfdən də etriaz aksiyaları keçirilir. Bundan başqa, Tramp üçün təhlükəsizlik tədbirləri həm Air Force One təyyarəsi və uçuş heyəti üçün Zürix aeroportunda, həm də Davosda ikiqat artırılıb.

Bu arada Türkiyə prezidenti Ərdoğanla Tramp "Zeytun budağı" hərəkatı çərçivəsində telefon danışığı gerçəkləşdirib. Ağ Ev Ərdoğanla Trampın danışığından sonra "Afrin əməliyyatında artan təzyiqlərdən qayğı duyuruq" açıqlamasını verib. Türkiyə prezidentinin qaynaqları isə ABŞ tərəfinin yazılı açıqlamasında danışığın mahiyyətinin tam öz əksini tapmadığını bildirib. Telefon danışığı ilə bağlı prezidentin qaynaqları aşağıdakı məlumatları verib: "Tramp Afrin əməliyyatı ilə bağlı "artan şiddətə görə qayğı" deyə bir şeydən danışmayıb. Əməliyyatla bağlı görüş mübadiləsindən əlavə heç nə müzakirə olunmadı.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 19 (6908) 26 yanvar 2018

# Eldar Mahmudovun "qara qutusu" danışdı

## "MTN işi"ndə ən mübhəm fiqurlardan biri olan general Teymur Quliyev günahsız olduğunu dedi; onun rəhbərlik etdiyi Monitorinq Mərkəzi illərlə gizli dinləmələr həyata keçirib

**Yanvarın 25-də Sabunçu Rayon Məhkəməsinin inzibati binasında ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) sabiq baş idarə və idarə rəisləri - general Sübahir Qurbanov, general Teymur Quliyev, general Natavan Mirvətova, eləcə də həmin qurumun digər vəzifəli şəxsləri - Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**

Musavat.com xəbər verir ki, Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi ilə qapalı keçirilən prosesdə təqsirləndirilən MTN generalı Teymur Quliyev bütün epizodlar üzrə ifadə verib.

O, ittihamları qəbul etmədiyini, günahsız olduğunu söyləyib.

"Yeni Müsavat" xatırladır ki, T.Quliyev "MTN işi"ndə ən mübhəm fiqurlardan biridir. MTN-in Monitorinq Mərkəzinin rəisi vəzifəsində çalışmış Teymur Quliyev Eldar Mahmudovun "qara qutusu" hesab olunur. Məhz onun rəhbərlik etdiyi Monitorinq Mərkəzi bütün qanunsuz dinləmələri həyata keçirib. Bu dinləmələr isə təkcə hədəfdə olan sahibkarları əhatə etmir. Məlumata görə, hakimiyyət təmsilçiləri də Teymur Quliyevin rəhbərlik etdiyi otaqdan dinlənilib, mümkündür ki, səs yazıları kimi qeydə də alınıb.

Eldar Mahmudovun işdən çıxarılmasından dərhal sonra qapıları möhürlənən Monitorinq Mərkəzi illərlə bu kimi dinləmələr həyata keçirib, mümkündür ki, danışıqlar xüsusi fayl şəklində toplanaraq kompromat kimi saxlanılıb və ya xaricə çıxarılıb. T.Quliyevi 2015-ci il oktyabr ayının 18-də Teymur Əliyev küçəsində yerləşən 4 mərtəbəli villasında həbs ediblər.

Onun evində axtarış aparılıb və istintaqçıların nə tapdığı hələ də bilinmir. Eləcə də il yarımdan çoxdur davam edən istintaqında T.Quliyevin nələri etiraf etməsi barədə də heç bir məlumat yoxdur.

T.Quliyevin Akif Çovdarovun həbsindən sonra bu cinayət işi üzrə şahid qismində dindirildiyi də deyilirdi.

T.Quliyevin istintaq zamanı rəhbərlik etdiyi mərkəzdə danışıqların dinlənilməsini nazir Eldar Mahmudovun yazılı icazəsi, habelə idarə rəisi Akif Çovdarovun göstərişi ilə həyata keçirdiyini etiraf etdiyi də yayılan xəbərlər sırasındadır. T.Quliyevin Bakı İstintaq Təcridxanasında ciddi müşahidə altında saxlanılması iddia olunur ki, bu da onun istintaq üçün necə qiymətli fiqur olduğunu göstərir.

1970-ci ildə Bakıda anadan olan Teymur Quliyev o vaxt Xalq Təsərrüfatı İnstitutu adlanan ali məktəbi bitirib. Teymur Quliyevin atası da polis sistemində işləyib, bir sıra rayonların rəisi olub. Əmisi isə sovetlər vaxtı daxil işlər nazirinin müavini vəzifəsində çalışıb.

T.Quliyev DİN-in iqtisadi cinayətkarlığa qarşı mübarizə idarəsində Eldar Mahmudovun bilavasitə rəhbərliyi altında işləyib və burada onların "iş birliyinin" əsası qoyulub.


Eldar Mahmudov


Teymur Quliyev

Eldar Mahmudov milli təhlükəsizlik naziri təyin olunandan sonra T.Quliyevi də MTN-ə gətirib. Əvvəl MTN-də təchizat şöbəsinin rəisi postunda işləyən T.Quliyev hələ də bilinməyən "xidmətlərinə görə" tezliklə daha yüksək posta - MTN-in Monitorinq Mərkəzinin rəisi vəzifəsinə təyinat alıb. 2012-ci ilin mart ayında ölkə başçısının sərəncamı ilə general-mayor rütbəsi alan T.Quliyev hüquq-mühafizə sistemində ən gənc generallardan biridir.

T.Quliyevin adını o zaman mediada ilk dəfə məşhurlaşdıran Azərbaycan Beynəlxalq Universitetinin sabiq rektoru Elşad Abdullayev olub. O, T.Quliyevin qardaşının oğurlanmasını təşkil edənlər sırasında olduğunu bildirib.

Teymur Quliyev daha sonra DİN sistemində çalışıb. DİN-in iqtisadi cinayətkarlığa qarşı mübarizə idarəsində gələcək MTN rəhbəri Eldar Mahmudovun bilavasitə rəhbərliyi altında işləyib.

Teymur Quliyevin mərhum atası Rəcəb Quliyev uzun illər polis sistemində işləyib. Bir sıra rayonların polis rəisi olub. T.Quliyevin əmisi 1980-ci ildən daxil işlər nazirinin müavini olub. Onlar əslən Gədəbəy rayonundandır.

❑ "YM"

# MKİ şefindən Azərbaycana xəbərdarlıq kimi açıqlama

## Mayk Pompeo: "Putin SSRİ-nin şöhrətini və əzəmətini bərpa etmək niyyətindədir"

**ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Mayk Pompeo deyib ki, Rusiya prezidenti Vladimir Putin ölkəsinin əzəmətini bərpa etməyə çalışır, əvvəlki SSRİ-nin şöhrətini və əzəmətini bərpa etmək niyyətindədir: "Putinin niyyətlərinə dair fikrimiz dəyişməyib. O, hələ də hesab edir ki, XX əsrin ən böyük uğursuzluğu SSRİ-nin dağılması olub. O, əvvəlki SSRİ-nin şöhrətini və əzəmətini bərpa etmək niyyətindədir. O, hər gün bu fikirlə yuxudan oyanır, onun ikinci fikri isə təkrar prezident seçilməkdir".**

Pompeo Putinin fikirlərinə dair məlumatı haradan aldığını açıqlamayıb.

Bəs bunlar konkret məlumatlara əsaslanan fikirlərdir, yoxsa son zamanlar iki ölkə arasında yaşanan gərginliklərin ortaya çıxardığı konyukturaya uyğun iddiadır? Əgər ciddi əsaslara söykənirsə, Putin qeyd olunan istəyinə nail ola biləcəkmi?

**Politoloq Elşən Mustafayev** "Yeni Müsavat"a bildirdi ki, Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru həqiqəti deyib və bununla da yeni bir şey söyləməyib. Boris Yeltsen dönəmi ilə indiki zamanı müqayisə edəndə görərik ki, Putin bu fəaliyyətinə 2000-ci ildən başlayıb və hədəfinə doğru gedib: "Rusiya ərazisi və təbii sərvətlərinin ehtiyatı baxımından böyük bir dövlətdir. Bunun üzərinə hərbi, xüsusilə nüvə potensialını da əlavə etsək ölkənin əzəmətli olma ambisiyalarını normal qəbul etmək lazımdır. ABŞ-ın narahat olduğu məqam da ondan ibarətdir ki, iki dövlət arasında dünya hegemonluğu mübarizəsi son məqamda Rusiyanın təhriki ilə qaynar fazaya keçə bilər. Əslində isə 2014-cü ilə kimi Rusiya sürətlə öz gücünü artırırdı. Həmin vaxta qədər ölkədə iqtisadi artımın olması, valyuta ehtiyatlarının çoxalması, hərbi sahəyə ayrılan diqqət və islahatlar sayəsində müdafiə qabiliyyətinin güclənməsi, ən əsası, ölkəyə 100 milyardlarla dollar xarici investisiyanın cəlb olunması Rusiyanın hədəfə çatmaq istəklərini reallaşdırmaq üzrə idi. Həmin ərəfədə Rusiyanın Qərb dövlətləri ilə, onların transmilli şirkətləri ilə də yaxşı münasibətləri var idi. Yəni Rusiyanı istəməyən dövlətlər bu inkişafın sonunda nələr olacağını bilsələr belə ona qarşı gedə bilmirdilər. Çünki Rusiya bunun üçün onların əlinə əsaslı səbəblər vermirdi. 2014-cü ildən, Krımın anneksiyasından sonra isə bu səbəblər artıqlaması ilə verildi və Rusiyaya qarşı sanksiyalar tətbiq olunmağa başladı. Sanksiyaların ilk aylarında 100 milyard dollardan artıq investisiya ölkədən çəkildi. Sonra nə qədər getdiyi barədə isə məlumatlar gizlədildi. Valyuta ehtiyatları dəfələrlə azaldı, yüksək texnologiyalarla bağlı olan bütün sahələrdə durğunluq yarandı və s. Bu proses Rusiyanı geriyə atdı".



**Ekspertin sözlərinə görə, dünyada əzəmətli və şöhrətli dövlət olmaq üçün təkcə hərbi güc kifayət etmir. İqtisadi göstəricilərin yüksək olması vacib şərtlərdəndir ki, bu olmasa hər hansı əzəmətdən danışmaq olmaz:** "Bu gün Vladimir Putin daxili imkanlar hesabına gücünü artırmağa cəhdlər edir. Amma bu proses çox ləng gedir, hətta bəzi sahələrdə alınmır. Rusiya nüfuzunu qaldırmaq üçün ilk növbədə milli və dövlət maraqlarını öz sərhədləri çərçivəsində qorumaqla qonşuları ilə münasibətlərini qaydaya salmalı, onlara qarşı ərazi iddialarından əl çəkməlidir. Ətraf ölkələrin daxilində münaqişələr yaratmamalı, münaqişələri qızışdırmamalıdır. Ətrafında olan dövlətlər onu qorxudan yox, dost olaraq müdafiə etməlidir. İmperiya ambisiyalarını bir kənara qoyub sözün əsl mənasında qonşuları ilə partnyorluq münasibətləri yaratmalıdır. Ən azı bu istiqamətdə ABŞ təcrübəsinə baxmalıdır. Belə olacağı halda, gələcəkdə Rusiya dünyada söz sahibi olan, hər yerdə hörmət olunan dövlətə çevrilə bilər. Əks halda, qarşıdurmalar, gərginliklər gündəmdə olacaq. Gərginliklər isə gücü artırmır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 19 (6908) 26 yanvar 2018



# Xankişini yaşatmaq proqramı

Zamin HACI
zaminhaci@gmail.com

**Kim nə deyir-desin, bizim xalq çox optimist, nikbin xalqdır. Bizdə hətta Ümid partiya formasındadır. Yəqin bu qarmaqarışıq, hər ac qurdun göz dikdiyi gözəl coğrafiyada min illərdir başımızı saxlamaq gücünü də elə həmin optimizmdən alırıq. Yoxsa yaşamaq mümkünsüz görünür.**

Örnək üçün, son günlər ürək xəstəliklərinin artması teması gündəmə gəldi. Çünki bəzi məşhurlar ürək xəstəliyindən öldülər, bəziləri yatağa düşdü. Həkimlər, ictimai fəallar, jurnalistlər isə dərhal bir proqram ortaya atdılar. Deyirlər, hökumət camaatın ürək xəstəliklərini diqqətə alsın, stent qoyulması projesi eləsin və sairə.

Bunu görəndə yadıma bir tanışın əhvalatı düşdü. Adamın azyaşlı nəvəsində ürək qüsuru ortaya çıxmışdı. Əməliyyatı Bakının xəstəxanalarından birində, Türkiyədən gələn həkim etməliydi. Həkimə 8 min manat *(ya da dollar - indi dəqiq xatırlamıram)* pul ödənməli idi. Yazıq baba təbii ki, o vəsaiti ödəmək üçün pensiyasını 800 il toplamalıydı, ona görə əlacsızlıqdan ölkədəki çox məşhur fonda üz tutdular. Fonddan cavab gəldi, hamı sevindi: "Gedin əməliyyat edirin, pul ödəniləcək". Ancaq xəstəxananın baş həkimi valideynlərə açıq demişdi ki, bir qəpik də ödənməyib, sadəcə, bizim boynumuza qoyublar. Əgər mümkünsə, heç olmasa pulun yarısını tapın gətirin, qalanını bizim canımız çıxar, xəstəxananın öz hesabına ödəyərik. Bax belə. Bizdə humanizm və xeyriyyəçilik adətən bu cür olur. Sənin özünün sağ cibindən 100 manatı çırpışdırıb sonra sol əlinə 20 qəpik nəziri elə verirlər ki, ölənəcən minnətdar olursan.

İndi bu ürək, stent proqramı arzuları da bunun kimi. Heç diqqət eləmədilər də, elə tam bu günlərdə talassemiya xəstəxanası Səhiyyə Nazirliyinin büdcəsindən çıxarılıb "publik hüquqi şəxsə" döndərildi. Bunun loru dildə adı belədir: daha büdcədən sizə qanpulu yoxdur, özünüz hansısa büdcə tapın, nəsə bir yolla maliyyələşin, bizim özümüzdə pul azalıbdır. Rəsmi statistikaya görə, Azərbaycanda talassemiya xəstələrinin sayı ümumi 1800 nəfərdir (2015, BBC). Eyni zamanda ürək xəstəliyindən ölkəmizdə hər il yalnız ölənlərin sayı 7000 nəfərdir (2015, APA). Miqyası, rəqəmləri ona görə yazdım ki, təxmini müqayisə imkanlarımız olsun. Sizcə, 1800 nəfərə pul qıymayanlar tək ölü sayı 7000-i ötən xəstəliyə maliyyə ayırarmı?

Tibbi sığorta haqda qanunun qəbulundan 18 il keçir! Ancaq ortada hələ də hansısa müəmmalı "pilot lahiyə", "filan rayonda sınayırıq" söhbətlərindən başqa heç nə yoxdur. Sanki nüvə sınaqları keçirilir. Halbuki qonşu Gürcüstanda - neft gəlirindən məhrum ərazidə Saakaşvili bu tibbi sığortanın qapılarını xalqın üzünə hələ 10 il qabaqdan açıbdır. Necə olur orda bu sistemi dərhal işə salırlar, yaxşı da işləyir, ancaq Azərbaycanda pilot-milot oyunlarıyla baş qatılır? Demək, sektorda korrupsiyanın olmasında maraqlıdırlar. Ata sözüylə desək, çobanın könlü olsa, təkədən pendir tutar. Könül yoxdur. "Pendir" də yerdən çıxır.

Neçənci dəfədir bu temaya qayıdırıq, yenə yeri gəlibdir: vətənin müdafiəsində ölənlərin qanpulunu da vermirlər. 11 min manat bir dəyirman daşına dönüb keçib boğaza. İndi, sizcə, artıq çoxdan ölənlərə, özü də yüksək şəhid adı statusuyla həlak olanlardan söhbət gedir - qanpulunu, sığorta pulunu verməyənlər ürək xəstələrinə stent qoyulmasına pul ayırarmı?

Keçən yüzilliyin əvvəllərində Qarabağın Füzuli bölgəsində Xankişi adlı bir nəfər olub, bunun tapançasını kimlərsə tutub əlindən alıblar. Xankişi kənddə əhvalatı danışarkən özünü sındırmamaq üçün tapançanın qabını göstərib deyirmiş: "Ölmüşdü Xankişi, qoburu əldən verə". İlyas Əfəndiyev bu məsəlin birinci hissəsini hansısa pyesinə salıb (Əfəndiyev Füzulidə doğulmuşdu), beləcə məsəl "Ölmüşdü Xankişi" şəklində bütün ölkəyə yayılıb. Ancaq qeyd etdiyim kimi, çox adam məsəlin yaranma tarixçəsini, orijinalını bilmir. Əlbəttə, mövzumuz bu deyil. Sadəcə, fikirləşirəm ki, əgər Xankişi sağ olsaydı, ürəyə stent qoyulmasına hökumətdən xahiş proqramını dəstəkləyərdi.

Bəlkə biz o zaman "Yaşayır Xankişi!" də deyərdik.

# Sərkisyan prezidentlikdən gedir, Qarabağ danışıqlarını kim aparacaq?

## Politoloq: "Dağlıq Qarabağ münaqişəsinin mahiyyətindən xəbərsiz şəxsin bu danışıqlara buraxılması inandırıcı görünmür"

**Ermənistanda seçkiqabağı gərginlik davam edir. Mart ayında işğalçı ölkədə keçiriləcək prezident seçkilərində hakim Respublikaçılar Partiyasının namizədinin Ermənistanın Böyük Britaniyadakı səfiri Armen Sərkisyanın olması gözlənilir. Sözsüz ki, A.Sərkisyanın hakim partiyanın namizədi olması halında onun parlament çoxluğunun səsini alaraq prezident kürsüsünə oturması çətin olmayacaq.**



Ancaq Ermənistanın yeni prezidentinin dönəmində Qarabağ danışıqlarını kimin aparacağı sual doğurur. Hazırda S.Sərkisyanın əsas hədəfi konstitusiya ilə geniş səlahiyyətlərə malik olan baş nazir kürsüsünü ələ keçirməkdir. Müşahidəçilər hesab edir ki, S.Sərkisyan növbəti mərhələdə də Qarabağ danışıqlarında tərəf olaraq iştirak etməkdə maraqlıdır. Doğrudur, hələlik Rusiyanın adamı olan Kren Karapetyanın və ya XİN başçısı E.Nalbəndyanın iddialarını da unutmaq olmaz. Ancaq istənilən halda, onların yüksək post tutması halında ənənəvi kursun dəyişəcəyini güman etmək olmaz.

**Yeri gəlmişkən, Ermənistan prezidenti Serj Sərkisyan növbəti dəfə Dağlıq Qarabağın heç vaxt Azərbaycana qaytarılmayacağını deyib. Novator.az-ın məlumatına görə, yanvarın 24-ü Avropa Şurası Parlament Assambleyasının iclasında çıxış edən Serj Sərkisyan Qarabağ münaqişəsinə də toxunub. O deyib ki, sülh danışıqlarının qarşısında əsas manea Azərbaycanın maksimalist və qeyri-real gözləntiləridir:** "Beynəlxalq ictimaiyyət Azərbaycanıt illüziyalardan qurtularaq reallığa dönməsinə kömək etsə, çox qısa müddətdə böyük uğur qazanmaq mümkündür. Bu münaqişəni həll etmək zəruridir. Münaqişə xalqlarımızın inkişafını əngəlləyir, adamlarımız həlak olur, böyük maddi ehtiyatlar itirirk".

**Azərbaycan nümayəndə heyətinin rəhbəri, AŞ PA-nın vitse-prezidenti Səməd Seyidov Serj Sərkisyana sərt cavab verib. O, Ermənistan prezidentinin çıxışının yalanla dolu olduğunu, onun dünya ictimaiyyətini aldatdığını bildirib və dövlət başçısına müraciətlə deyib:** "Siz Azərbaycana qarşı müharibənin lideri olmusunuz. Niyə çıxışınızda Xocalı faciəsindən danışmadınız? Ermənilər Xocalıda uşaqlar, yaşlı insanlar, qadınlar daxil olmaqla, 600-dən çox insanı öldürüb. Niyə etnik təmizləmə barədə danışmadınız? Siz hazırda beynəlxalq ictimaiyyəti aldatmağa çalışırsınız. Nə bu təşkilatın, nə də digər təşkilatların qətnamələrini yerinə yetirirsiniz. BMT, Avropa İttifaqı, Avropa Şurası, digər təşkilatlar Azərbaycan torpaqlarının işğal olunduğunu bəyan edib. Siz bu təşkilatlardan heç kəsi qəbul etməyə hazır deyilsiniz".

**Səməd Seyidovun sualını cavablandıran Serj Sərkisyan Ermənistanın və ermənilərin Xocalı qırğınında heç bir rolunun olmadığını iddia edib. Ermənistan prezidenti Azərbaycanın ermənilərsiz Qarabağ arzuladığını vurğulayıb:** "Siz maksimumu, mümkünsüzü - Dağlıq Qarabağı Azərbaycanın tərkibinə qaytarmağı istəyirsiniz. Bu mümkün deyil. Heç vaxt olmayacaq".

"Sərkisyan sayıqlayır, dediklərinin hamısı absurddur". Bunu virtualaz.org-a açıqlamasında Azərbaycanın sabiq prezidenti Ayaz Mütəllibov deyib.

Xatırladaq ki, Xocalı hadisələri ilə əlaqədar Serj Sərkisyan Azərbaycanın o vaxtkı prezidenti Ayaz Mütəllibova işarə edərək bildirib ki, "o, çox ətraflı şəkildə həmin qırğının kim tərəfindən təşkil edildiyi barədə faktları sadalayıb".

"Köçəryan və Sərkisyan kimdirlər ki, mənim adımı çəkirlər? Onlar Xocalı soyqırımında günahkar olan cinayətkarlardır. Belə əsəbi reaksiya verirlərsə, görünür, mənim müsahibələrim və çıxışlarım erməniləri çox narahat edir. Rusiyanın "Memorial" hüquq müdafiə təşkilatı bu hadisələri sənədlərlə qeydə alıb və günahkarları müəyyənləşdirib.

Sərkisyan oxumağı bacarırsa, həmin hesabları bir də oxusun. Adımı çəkməklə Sərkisyan nə əldə edir? O, törətdiyi cinayətlərə görə məsuliyyətdən qaçıb qurtarmaq istəyir. Amma alınmayacaq: bütün dünya Sərkisyanın və onun cinayət ortağı Köçəryanın kim olduğunu bilir", - Mütəllibov deyib.

Göründüyü kimi, S.Sərkisyan ənənəvi cani obrazındadır və işğalında iştirak etdiyi Qarabağla bağlı danışıqlardan da uzaqlaşmaq niyyətində deyil. Ancaq hesab olunur ki, Ermənistandakı hakimiyyət dəyişikliyindən sonra Qarabağ danışıqlarında yeni prezidentin iştirakı da pozitiv dəyişikliyə səbəb olmayacaq.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a bildirdi ki, Qarabağ danışıqlarında kimin iştirak edəcəyi ilk növbədə kimin prezident və baş nazir olacağından asılıdır:** "Yəni Dağlıq Qarabağ münaqişəsinin mahiyyətindən xəbərsiz şəxsin bu danışıqlara buraxılması inandırıcı görünmür. Digər tərəfdən, hətta belə bir hal yaransa da, burada birmənalı şəkildə siyasi gediş ola bilər. Yəni mahiyyətlə tanış olmaq üçün vaxt almaq, bununla da status-kvonun ömrünü uzatmaq kimi addımlar atıla bilər. Lakin görünür ki, istər Sərkisyan, istər Karapetyan və ya Nalbəndyan bu məsələlərdən xəbərdardırlar və növbəti proseslər də buna hesablanıb".

**Politoloqun fikrincə, bu məsələdə kimlərinsə hazırkı kursdan və ya xətdən kənara çıxacağı, yaxud danışıqlarda başqa kurs sərgiləməsi inandırıcı görünmür:** "Dağlıq Qarabağ münaqişəsi hazırkı və gələcək iqtidar üçün hakimiyyəti əldə saxlamaq imkanıdır... Danışıqlar naminə danışıqlara getmək təbii ki, Azərbaycana lazım deyil. Eyni zamanda Rusiya da cavabdehliyi öz üzərindən atmağa çalışır və son zamanlar rəsmi və qeyri-rəsmi bəyanatlarla gündəmdədirlər. Lakin hakimiyyətə gələn və danışıqlar üçün müvəkkil ediləcək şəxsdən çox məsələlər asılıdır və aprel ayının 9-dan sonra bu bilinəcək".

❑ Cavid TURAN,
"Yeni Müsavat"



# Allahşükür Paşazadə Qüds üzrə konfransa gedir

**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə yanvarın 26-da Türkiyə Respublikasına səfərə yola düşür. QMİ-nin mətbuat xidmətindən virtualaz.org-a bildiriblər ki, səfərdə məqsəd 29-30 yanvar tarixlərində İstanbul şəhərində "Qüds: Vəhyin müqəddəsləşdirdiyi şəhər" mövzusunda beynəlxalq konfransda iştirak etməkdir.**

QMİ sədri Şeyxülislam A.Paşazadə beynəlxalq konfransın açılış mərasimində məruzə ilə çıxış edəcək.

Türkiyə hökumətinin himayəsi altında keçiriləcək konfransda Türkiyə, İran, İraq, Fələstin, Hindistan, Malayziya, İngiltərə, Özbəkistan, Pakistan, Nigeriya, Tatarıstan (RF), Mərakeş, İndoneziya, Uqanda, Qazaxıstan, Keniya, Mavritaniya, Somali, Cibuti və Tanzaniyadan tanınmış elm və din xadimlərinin iştirakı gözlənilir.

# Azərbaycanın AŞ PA-dakı nümayəndəsi yenidən komitə sədri seçildi



**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) sosial məsələlər, sağlamlıq və davamlı inkişaf komitəsinin iclası keçirilib. «Trend»in məlumatına görə, Azərbaycanın AŞ PA-dakı nümayəndəsi, Milli Məclisin üzvü Sevinc Fətəliyeva yenidən qurumun sosial məsələlər, sağlamlıq və davamlı inkişaf komitəsinin Avropa Sosial Xartiyası üzrə alt komitəsinin sədri seçilib.**

Bu barədə S.Fətəliyeva özü məlumat verib.

Qeyd edək ki, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun başçılıq etdiyi nümayəndə heyəti AŞ PA-nın qış sessiyasında iştirak etmək üçün Strasburqa səfər edib. Nümayəndə heyətinə Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov, deputatlardan Sahibə Qafarova, Sevinc Fətəliyeva, Qənirə Paşayeva, Ülviyyə Ağayeva, Sabir Hacıyev, Elşad Həsənov, Vüsal Hüseynov, Fazil Mustafa, Asim Mollazadə, Rövşən Rzayev daxildirlər.

Səfər yanvarın 28-də başa çatacaq.

**Rusiya ilə Azərbaycan arasında hərb-texniki əməkdaşlıq işğalçı Ermənistanda daima ağrılı reaksiya doğurub. Ötən həftə Rusiyadan alınan yeni partiya hərbi texnikanın cəbhə bölgəsinə göndərilməsi də istisna olmayıb və belə görünür ki, düşmən ölkənin rahatlığını əməllicə pozub. Bunun ardınca Azərbaycan prezidentinin Davosda verdiyi son açıqlama İrəvanın çaşqınlığını bir qədər də artırıb.**




# Əliyevin Davosdan verdiyi anons İrəvanı qarışdırdı

## Azərbaycanın Rusiya ilə yeni hərbi sazişlər imzalamağa hazırlaşması düşmən ölkədə çaşqınlıq yaradıb; **rusiyalı hərbi analitik:** "Qarabağa təhlükə olsa, bu, Ermənistanın problemi olacaq, Rusiyanın yox"; **erməni politoloq:** "Moskva İrəvana qarşı Bakının əli ilə ikinci "aprel" hazırlayır..."

"Yeni Müsavat" xatırladır ki, Azərbaycanın dövlət bacısı "RİA-Novosti"yə müsahibəsində Rusiya ilə hərbi-texniki əməkdaşlığa dair yeni sazişlər üzrə danışıqlar aparıldığını və bu istiqamətdə heç bir məhdudiyyət olmadığını deyib. "Bu, daim diqqət mərkəzimizdə olan prosesdir. Hazırda danışıqlar gedir. Siz daha yaxşı bilirsiniz ki, Rusiyanın hərbi sənayesi inkişaf edir, yeni müasir silahlar yaranır", - deyə o vurğulayıb. Prezident həmçinin bu yöndə Rusiya ilə əməkdaşlığı məhsuldar adlandırıb. Onu da qeyd edib ki, Azərbaycanın Rusiya ilə imzaladığı əksər sazişlər icra olunub. Artıq silahların alındığın deyən İlham Əliyev əməkdaşlıq üzrə gələcək planlar üzərində işin davam etdiriləcəyini də söyləyib.

*****

Sözsüz ki, Azərbaycanla hərbi-texniki əməkdaşlıq, silah alveri sanksiyalar altında olan Rusiyaya ilk növbədə kommersiya maraqları baxımından vacibdir. İkinci yandan, bu tip əlaqələr həm də Bakı və Moskvanı bir-birindən asılı edir, aradakı siyasi bağlar və etimad möhkəmlənir. Erməni tərəfi ən çox qayğılandıran da budur.

Bu fonda Türkiyənin bölgədə güclənməkdə davam eləməsi və Rusiya ilə getdikcə daha anlaşıqlı dildə danışması İrəvanın xofunu artırıb. Hətta qardaş ölkənin Suriyada apardığı uğurlu antiterror əməliyyatı ("Zeytun budağı") yekun etibarilə Ankaranın Moskva ilə birgə Güney Qafqaz problemlərinin həlinə də fəal girişə biləcəyi kontekstində analiz edilməkdədir.

Ancaq İrəvanın əsas başağrısı Moskvanın Bakı ilə hərbi sahədə işbirliyidir. Və düşmən ölkə şantaj da daxil, istənilən üsuldan yararlanmağa çalışır ki, bu əlaqələr pozulsun, Azərbaycanla Rusiyanın arası soyusun. Erməni KİV-lərində son günlər yer alan məqalə və təhlili yazılardan hasil olan qənaətlərdən biri də budur.

*****

Məsələn, "Yeni Müsavat"ın məlumatıma görə, **rusiyalı erməniпərəst politoloq Aleksandr Skakov** 1in.am erməni nəşrinə deyib ki, Moskvanın Azərbaycan böyük həcmdə silah satması düzgün sayıla bilməz. "Amma indi ən əsası odur ki, yeni hərbi müqavilələr imzalanmasın", - deyə o bildirib.

Ancaq qeyd etdiyimiz kimi, prezident İlham Əliyev artıq ermənilərin ovqatını təlx edən anonsu verib - hərbi əməkdaşlıq davam edəcək, üstəlik, yeni müqavilələr imzalanacaq.

**Digər rusiyalı tanınmış politoloq və hərbi ekspert, Moskvadakı Siyasi və Hərbi Analiz Mərkəzinin direktor müavini Aleksandr Xramçixin öz növbəsində adıçəkilən sayta açıqlamasında bildirib ki, Rusiyanın Azərbaycana silah satması ən əvvəl kommersiya xarakteri daşıda da, ortada siyasət də var.** "Moskva bununla müəyyən mənada Azərbaycanı özünə bağlamış olur. Çünki həmişə belə olur ki, silah satışı siyasi əlaqələri də möhkəmlədir. Rusiya istəməzdi ki, Azərbaycan başqa təsir sferalarına keçsin - məsələn, Amerikanın və ya Türkiyənin. Bu üzdən Azərbaycanı silahla özünə bağlayır, üstəlik, burada ortaq neft məsələləri də var. Moskva Azərbaycanı öz əlindən tam buraxmaq istəmir" - ekspert bildirib.

**Xramçixin Kremlin yanaşmalarında prinsipial dəyişikliklər görmür:** "Rusiya özünü elə aparır ki, sanki Azərbaycanla Ermənistan arasında heç bir konflikt yoxdur. O, həm Ermənistanı, həm də Azərbaycanla müstəqil əlaqələrə malikdir və həm bu, həm də digər tərəfə silah satır, bu zaman Ermənistanla KTMT üzrə əlaqələrdən də imtina eləmir".

**Konkret olaraq, Dağlıq Qarabağ konfliktinə gəlincə, rusiyalı hərbi analitik hesab edir ki, müharibənin bərpa olunacağı halda Moskva İrəvan qarşısında öz öhdəliklərini yerinə yetirəcək.** "Yəni söhbət sırf Ermənistanın özünə qarşı təcavüzdən gedir. Yox, əgər Qarabağa hücum olsa, bu, Ermənistanın problemi olacaq. Mahiyyət etibarilə belə yanaşma Azərbaycana silah tədarükündən əvvəl də, sonra da olub", - deyə o əlavə edib.

*****

"Əminəm ki, Rusiya Azərbaycanı fasiləsiz şəkildə silahlandırmaqla Bakını təxribata çəkir, onu Qarabağa və Ermənistan qarşı müharibəyə təhrik edir ki, Ermənistanı qəti şəkildə müstəqillik və suverenlikdən məhrum eləsin". Bu sözləri isə "Yeni Müsavat"ın məlumatına görə, erməni politoloq Levon Şirinyan erməni mətbuatına açıqlamasında deyib.

**Onun iddiasına görə, 2016-cı ilin aprel müharibəsi zamanı öz hədəfinə çatmayan Rusiya planın ikinci mərhələsinə keçmək istəyir:** "Bu, çox təhlükəlidir. Ermənistan siyasi-hərbi rəhbərliyi dəqiq anlamalıdır ki, Putin Rusiyası mütləq ikinci cəhdini edəcək - Azərbaycan vasitəsilə Ermənistana çox şeyləri sırımaq istəyəcək. Qoy hakimiyyətin illüziyası olmasın: Rusiya Azərbaycanı Ermənistana qarşı qaldıracaq. Bu vəziyyətdə bir yolumuz qalır: komplementar xarici siyasəti daha aktiv şəkildə aparmaq, Avropa ilə əlaqələri möhkəmlətmək və ilk növbədə daxili situasiyanı yaxşılaşdırmaq".

*****

Əlbəttə ki, Rusiya Ermənistanın "ətini yesə də, sümüyünü atmaz". Çünki regionda yeganə forpostu Ermənistandır. Moskvanın Cənubi Qafqazda legitim hərbi bazaları da yalnız işğalçı ölkədə mövcuddur. Bu da var ki, İrəvan Kremlin rüsxəti olmadan öz xarici siyasətində kəskin gediş və dönüşlər edə bilməz. Əks halda, xarici sərhədlərini də rusların qoruduğu Ermənistan şərt şəkildə cəzalanar. Cəza verməyin bir yolu da Qarabağ məsələsidir, bu xüsusda Şirinyanın təlaşına haqq qazandırmamaq olmur...

❑ **"Yeni Müsavat", siyasət şöbəsi**

# Azərbaycan-ABŞ münasibətləri-gözlənilən olmadı

## **Politoloq:** "Trampın gəlişi ilə Amerika siyasəti tamamən alt-üst oldu"

**Son bir ildə Amerika-Azərbaycan münasibətlərində gözlənilən dəyişiklik baş vermədi. Yeni prezident Donald Trampın gəlişindən sonra buna ümidlər böyük idi. Onun qalib gəlməsinin bir sıra ölkələr kimi, Azərbaycan üçün də sərfəli olacağı deyilirdi. Hətta Trampın qələbəsi rəsmi Bakı tərəfindən sevinclə qarşılanmışdı.**



Lakin görünən odur ki, D.Trampın əvəzlədiyi Barak Obama dövründə Azərbaycanla ABŞ arasında soyuqlaşan münasibətlər hələ də davam edir. Doğrudur, ABŞ Azərbaycanın daxili işlərinə əvvəlki kimi qarışmır, amma münasibətlər də soyuq olaraq qalır ki, bu hər iki tərəf üçün sərfəli deyil.

Müstəqil ekspertlər yaranan mövcud durumun çox da uzun sürməyəcəyini bildirirlər. Xüsusilə bu ilin oktyabrında ölkəmizdə keçiriləcək prezident seçkiləri önə çəkilərək, seçkilər ərəfəsində Ağ Evin proseslərə təsir etmək üçün hərəkətə keçəcəyi deyilir. Bunun üçün Amerikanın rəsmi Bakı ilə münasibətləri düzəltməyə çalışacağı bildirilir. Çünki rəsmi Vaşinqton heç bir halda əsas Cənubi Qafqaz ölkəsi kimi Azərbaycanı itirmək istəmir.

**Sabiq dövlət müşaviri Qabil Hüseynli Trampın gəlişi ilə Amerika siyasətinin tamamən alt-üst olduğunu söylədi:** "Bu siyasətdə ABŞ-ın maraqları, yeni dünya düzəninin formalaşdırılması arxa plana keçib, yaxud unudulub. Dövlət Departamentində bir çox vəzifəli şəxslərin yeri boşdur, yeni vakansiya var. Bu səbəbdən də xarici siyasətdə ciddi axsamalar hiss edilməkdədir. Bunu təkcə Azərbaycana aid etmək olmaz. Trampın gəlişi ilə Amerika dünyadakı qüdrətini itirməkdə, bir sıra yerlərdə boşluqlar buraxmaqdadır. Bu boşluqları da Rusiya, Çin kimi dövlətlər doldurmaqdadır. Cənubi Qafqaza qarşı münasibətdə ciddi yanaşmalar nəzərə çarpmır. Burada Gürcüstan istisna ilə ön plandadır. Azərbaycan və Ermənistana qarşı münasibətdə köklü dəyişikliklərin şahidi olmuruq. Güman etmirəm ki, Tramp dövründə Obama dövrü ilə müqayisədə Azərbaycan-ABŞ münasibətləri pisləşib. Yalnız Konqresdə, Senatda Dağlıq Qarabağ və digər məsələlərlə bağlı müəyyən mənfi halları qeyd edə bilərik. Bunu da bütövlükdə Amerikanın rəsmi dövlət siyasəti kimi qəbul etmək çətindir. Pozitiv cəhətlər də var ki, bunları qeyd etməmək mümkün deyil. Məsələn, Amerika Azərbaycanın TANAP, TAP, Cənub Qaz Dəhlizi layihələrini qızğın sürətdə dəstəkləyir. Trampın özü bu barədə dəfələrlə danışıb. Dövlət Departamentinin rəhbəri Azərbaycanın geosiyasi önəmindən, Əfqanıstandakı NATO qoşunlarına Azərbaycanın yardımından danışıb. Amerika yaxşı bilir ki, Azərbaycan regionun lider dövlətidir. Lider dövlət kimi Amerika və onun müttəfiqləri üçün önəmli olan bir sıra irimiqyaslı iqtisadi layihələri Azərbaycan gerçəkləşdirir. Belə bir şəraitdə münasibətlərin kəskinləşəcəyini proqnozlaşdırmaq çətindir. Doğrudur, aradabir konqresmenlər, senatorlar səviyyəsində Azərbaycanda insan haqları, siyasi məhbuslarla bağlı müəyyən fikirlər səsləndirilir. Düşünürəm ki, bu məsələ də öz müsbət həllini tapmaq üzrədir. Azərbaycan Xalq Cümhuriyyətinin yüz illiyi ilə bağlı "Qızıl amnistiya" hazırlanır ki, bu amnistiya bir çox məhbuslarla yanaşı siyasi məhbusları da əhatə edə bilər. Bununla Azərbaycanla Qərb ölkələri arasında yaranan bəzi fikir ayrılıqları aradan çıxa bilər. Eyni zamanda Azərbaycanın Avropa Birliyinə meyllənməsi müşahidə olunur. Bundan əlavə, ötən ilin sonlarında Avropa Birliyi Parlamentinin iclasında ölkə başçısının iştirakı və orada yekun sənədə ölkəmizin imza atması təqdirlə qarşılanır. Hazırda Azərbaycanla Avropa Birliyi arasında münasibətlərin daha da yaxşılaşdırılması istiqamətində danışıqlar gedir. Ölkəmiz Avropa Birliyinin Yaxın Tərəfdaşlıq Proqramına qoşulmaq üçün sürətli addımlar atır. Bu addımlar Azərbaycanın qərbyönümlü siyasətini xeyli gücləndirəcək. Bu da hazırda Azərbaycan-ABŞ münasibətlərində hansı problemlər varsa, onları aradan qaldıra biləcək".

**Politoloq Azərbaycanda qarşıdan gələn prezident seçkilərinə də toxundu:** "Bu seçkilər Azərbaycan üçün çox ciddi sınaqlardan biridir. Seçkilər ərəfəsində həm Qərb ölkələrinin, həm də Amerikanın Azərbaycan üzərində diqqəti artacaq. Bu baxımdan Azərbaycan bu seçkiləri qayda-qanunlara uyğun keçirmək üçün lazım olan nə varsa, hamısını həyata keçirəcək. Ölkədə demokratik seçki mühitinin yaradılması, demokratik seçkilər üçün lazım olan bütün şərtlərin həyata keçirilməsi prosesi, zənnimcə, uğurla aparılacaq. Qərb ölkələrindən gələn müşahidəçilərin də seçki proseslərini izləmələri üçün lazımi şərait yaradılacaq. Bu nöqteyi-nəzərdən güman etmirəm ki, bundan sonrakı hadisələr Qərb-Azərbaycan münasibətlərini pisləşdirsin. Əksinə, bu, münasibətlərin daha da yaxşılaşmasına və Azərbaycanın Qərbə inteqrasiyasına gətirib çıxara bilər".

❑ **Cavanşir ABBASLI,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 19 (6908) 26 yanvar 2018

# Türkiyə ordusu terrorçuları darmadağın edir - zəfərlər ard-arda gəlir

## Afrin əməliyyatının 6-cı günü; 300-dən artıq terrorçu məhv edilib, baş nazir Yıldırım İrandan Aralıq dənizinədək sərhədin terrorçulardan təmizlənəcəyini dedi...

**Afrində Türkiyə ordusu və Azad Suriya Ordusu ilə terrorçular arasında şiddətli döyüşlər davam edir. AzNews.az xəbər verir ki, bu barəfə Türkiyə mediası məlumat yayıb. Bildirilir ki, "Zeytun budağı" əməliyyatının 6-cı günündə Burseya dağı da terrorçulardan təmizlənib. Strateji əhəmiyyətə malik olan dağın təmizlənməsi istiqamətində günlərdir toqquşma gedirdi.**




Türk tanklarının növbəti partiyası Afrinə doğru hərəkətə keçib. Burseya dağından sonra növbəti hədəf Bafelyun təpəsidir. Terrorçular Türkiyənin sərhəddəki Kilis bölgəsində mülki əhalini raket atəşinə tutmaq üçün bu təpədən istifadə edir.

Ümumilikdə ötən gün Türkiyə ordusu Baş Qərargahı məlumat yayaraq hava zərbələri və quru əməliyyatları nəticəsində yanvarın 25-nə qədər Afrində 303 terrorçunun məhv edildiyini açıqlayıb. Hərbi hava qüvvələrinin zərbələri nəticəsində terrorçuların istifadə etdiyi 6 silah anbarı və blindaj məhv edilib. Əməliyyatlar davam edir.

**Bu arada Türkiyə baş naziri Binəli Yıldırım bildirib ki, Türkiyə dövləti İrandan Aralıq dənizinə qədər olan 1350 kilometrlik sərhəd boyunca sərhəddə heç bir terror təşkilatının olmasına imkan verməyəcək. Sitat:** "İrandan Aralıq dənizinə, İraq, Suriya cənub sərhədlərimiz boyunca 1350 kilometr məsafədə heç bir terror təşkilatının qalmasına imkan verməyəcəyik - istər Fəratın sağ sahili olsun, istərsə də sol sahili".

Baş nazir əməliyyatın 6-cı günündə 300-dən artıq terrorçunun məhv edildiyini bildirib. Eyni zamanda ABŞ-ın İŞİD-ə qarşı koalisiyasının fəaliyyətini tənqid edən Yıldırım Raqqanın alınması zamanı İŞİD üzvlərinin şəhərdən çıxarılmasını tənqid edib. Yıldırım deyib ki, Suriyadan qaçan terrorçular gedib başqa ölkələrdə, Misirdə terror törədir.

Xatırladaq ki, ABŞ-ın İŞİD əleyhinə koalisiyasının sözçüsü polkovnik Rayan Dilon iki gün əvvəl Bağdaddan Pentaqonda jurnalistlərə verdiyi video konfransda Raqqa alındığı zaman İŞİD "şübhəlilərinin" də şəhərdən çıxarılması ilə bağlı BBC-nin iddialarını təsdiqləyib.

Qeyd edək ki, çərşənbə günü axşam ABŞ və Türkiyə prezidentləri arasında telefon danışığı olub. Tramp və Ərdoğanın söhbətinin əsas mövzusu Suriya münaqişəsi və Türkiyənin Afrin rayonunda həyata keçirdiyi "Zeytun budağı" əməliyyatı olub. Ancaq telefon söhbəti ilə bağlı Ağ Ev və Beştəpə sarayından yayılan açıqlamalar fərqli olub. Məlum olub ki, iki lider arasında anlaşma olmayıb. Türkiyə mətbuatının xəbərinə görə, Ağ Evdən yayılan açıqlamada qeyd olunub ki, Tramp "Afrində gərginliyin artmasının Suriyada müştərək hədəflərə nail olmaq yolunda risk yaratdığını" deyib. Eyni zamanda ABŞ prezidentinin Türkiyənin gücdən istifadə etməməsi və əməliyyatı məhdudlaşdırmasını istəyib. Həmçinin açıqlamaya görə, Tramp Ərdoğana Türkiyə və ABŞ hərbçiləri arasında toqquşmadan yayınmaq çağırışı edib.

Ancaq Türkiyə Prezident Sarayı Ağ Evin bəzi açıqlamalarının təhrif olunduğunu bəyan edib. Eyni zamanda Trampın "Türkiyədən gələn dağıdıcı və reallığı əks etdirməyən bəyanatlar" kimi bir ifadələrdən istifadə etmədiyi bildirilib. Afrin əməliyyatı ilə bağlı isə sadəcə fikir mübadiləsi aparıldığı qeyd olunub.

İki fərqli açıqlama göstərir ki, ABŞ və Türkiyə arasında Suriyanın şimalı ilə bağlı açıq fikir ayrılığı var. Ancaq məsələ ondadır ki, Türkiyənin qəti mövqeyi ABŞ-ın maraqları ilə uyğun gəlmir. Çünki Amerika hazırda kürdlərlə ittifaqdadır və Türkiyənin qələbəsi Amerikanın sahə müttəfiqini itirməsi demək olar. Ancaq Vaşinqton Türkiyədən də vaz keçə bilməz. Çünki Türkiyə NATO ölkəsi olaraq ABŞ-ın bölgə müttəfiqi, strateji tərəfdaşıdır.

Bu arada Türkiyənin "Haberturk" qəzetinin yazarı Fatih Altaylı Türkiyə və ABŞ-ın Menbic rayonunun kürdlərdən geri alınması ilə bağlı anlaşdığını iddia edib. Altaylı yazısında iddia edib ki, artıq bu istiqamətdə diplomatik anlaşma var və Afrin əməliyyatından sonra Türkiyə ordusu və müttəfiqləri Menbicə yönələcəklər. Altaylının iddiasına görə, ABŞ Menbic rayonunda Türkiyə üçün "Təhlükəsizlik zonası" yaradılmasına razılaşıb.

Ancaq son danışıqlar göstərir ki, Vaşinqton-Ankara xəttində vəziyyət heç də Altaylının pozitivliyini bölüşmür. Afrin əməliyyatı başa çatmamış Türkiyənin Menbicə yönəlməsi mümkün deyil. Üstəlik, amerikalıların hər hansı qarşılıq olmadan Afrin və Menbicdən çəkilməsi də real deyil. Çünki ABŞ kürdlərə verdiyi dəstəklə Suriyanın şimalında idarəçilik qurmaq və bununla da Dəməşqə təzyiq etməyi planlayır. Vaşinqton belə bir plandan rahat imtina etməsi mümkün deyil. Menbic əməliyyatı artıq yeni səhifədir və bu tezliklə orda əməliyyatın başlaması inandırıcı deyil.

Ankaranın Afrin əməliyyatının bir hədəfi də suriyalı qaçqınların geri - evlərinə göndərilməsidir. "Fırat qalxanı" əməliyyatı nəticəsində azad edilmiş bölgəyə hazırda minlərlə suriyalı qayıdıb. Azad edilən bölgələrə yenə minlərlə suriyalının qayıdacağı ehtimal olunur.

Hadisələr fonunda "Financial Times" qəzeti suriyalı qaçqınların təmin olunması üçün Türkiyəyə verilməli olan 3 milyard avro yardımla bağlı Avropa Birliyi (AB) daxilində fikir ayrılığının yarandığını yazıb. 2016-cı ildə əldə olunmuş anlaşmaya əsasən, AB Türkiyəyə 6 milyardlıq yardım göstərəcəkdi. Yardımın ikinci partiyası, yəni 3 milyard avroluq hissəsini kimin ödəyəcəyi məsələsində Birlik ölkələri anlaşa bilmir. Almaniya və Hollandiya kimi ölkələr 3 milyard avro yardımın AB Komissiyasının ödəməli olduğunu təklif edir. Amma bu təklifə qarşı çıxanlar da var.

**Suriya xarici işlər nazirinin müavini Faysal Miqdad isə BBC-yə müsahibəsində "Zeytun budağı" əməliyyatını "işğal" adlandırıb. Eyni zamanda lazımi anda Türkiyə ordusuna cavab verəcəklərini deyib. Afrin əməliyyatını Suriyanın suverenliyinin pozulması adlandıran Miqdad deyib ki, bu hücuma "birbaşa və dolayısı ilə" cavab verirlər:** "Bu günə qədər baş verənlərə baxa bilərsiniz. Bizim öz siyasətimiz, öz mövqeyimiz var. Biz bu hücumu *(Afrin əməliyyatını - K.R.)* qınadıq və buna uyğun da hərəkət edəcəyik. Xüsusi bir addımdan danışmayacağıq. Suriyanın özünümüdafiə haqqı vardır".

O əlavə edib ki, hava hücumundan müdafiə sistemləri Türkiyə hava qüvvələrinin hücumuna qarşı hazırlıqlı vəziyyətə gətirilib.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
❑ **"Yeni Müsavat"**

# "LUKoil" prezidenti neftin bahalaşmasını ona görə istəmir ki...

## Elnur Soltanov: "Neft bütün sahələrdə qiymət artımına gətirib çıxardığına görə..."

**"OPEC+ ölkələrinin hasilatın azaldılması ilə bağlı razılaşması neftin qiymətini stabilləşdirib. Lakin neftin qiymətinin 150 dollara qədər yüksəlməsinə imkan verilməməlidir". Bu sözləri "LUKoil"in rəhbəri Vahid Ələkbərov Davos İqtisadi Forumunda qeyd edib.**

O deyib ki, neft istehsalçısı olan ölkələr artıq neftin barelinin 70 dollar olması ilə qane deyillər: "Razılaşmadan belə çıxır ki, onlar neftin qiymətini 2011-2012-ci illər səviyyəsinə çatdırmaq istəyirlər. Biz neftin qiymətində sıçrayışlı artıma 140-150 dollar səviyyəsinə çatmasına imkan verməməliyik. Neft istehsalçılarının acgözlüyü neftin qiymətinin 9 dollardan 140 dollara yüksəldiyi dövrün təkrarlanmasına gətirib çıxara bilər. Hansı ki, həmin vaxt alternativ enerji mənbələrinə investisiyalar artmağa başladı, nəticədə neftin qiyməti kəskin ucuzlaşdı".

Bəs görəsən, "LUKoil"in rəhbərinin bu qənaətə gəlməsinin səbəbi nədir? Neftin kəskin bahalaşması onların işinə hansı şəkildə ziyan vurur?

**"Yeni Müsavat"ın suallarına ADA Universitetinin Xəzər Enerji və Ətraf Mühit Mərkəzinin direktoru Elnur Soltanov cavablandırdı. O bildirdi ki, neftin qiymətinin kəskin yüksəlməsi bir müddət sonra istehsalçı şirkətlər üçün də ciddi problemlərə səbəb olur:** "Neft qiymətləri ilə bağlı problem ondan ibarətdir ki, yüksək qiymət fundamental bazar şərtləri ilə də diqtə oluna bilər, keçici spekulyativ səbəblərdən də qaynaqlana bilər. Ancaq bütün hallarda yüksək qiymət o deməkdir ki, alternativlərə fürsət yaranacaq. Neftin qiyməti 150 dollar olanda iki hal baş verir. Birincisi, neftin istehsalında artım sürətlənir. Neft istehsalçıları baş düşürlər ki, qiymət artdığına görə onların mənfəəti də artacaq. İş adamlarının hansısa əmtəədən qazancları 1 dollar da artırsa, ondan daha çox istehsal etməyə çalışırlar. Yeni quyular qazılmağa başlayır, yeni investisiyalar qoyulmağa başlayır. Daha əvvəl maliyyəti


Vahid Ələkbərov

yüksək olan, ancaq rentabelli olmayan quyular da qazılır. Dərin okeanda, buzlu yerlərdə belə qazıntılar artır. Bir sözlə, sabah neftin qiyməti 150 dollar olsa, 1 il sonra dünya neft hasilatında çox ciddi bir yüksəliş baş verəcək. Çünki hər kəs yüksək bazar qiymətindən yararlanmaq istəyəcək və istehsal artacaq. İstehsal artanda isə qiymətlər çox sürətlə üzüaşağı gəlir, ucuzlaşmağa başlayır. Yüksək qiymətin bir problemi odur ki, onun nəticəsində istehsal bir o qədər sürətlənir. Ancaq neft istehsalı, obrazlı desək, şirniyyat istehsalına bənzəmir. Siz bu gün hasilatın artımı ilə bağlı qərar verirsinizsə, quyu qazırsınızsa, onun nəticəsini ən yaxşı halda bir ildən sonra görürsünüz. Ona görə də yüksək neft qiyməti yaxın müddətdə neft qiymətinin məhv olması anlamına gəlir. Biz bunu 2008-ci ildə də, 2014-2015-ci ildə də yaşadıq".

**Ekspertin fikrincə, ikinci səbəb odur ki, neft qiymətləri yüksək olanda alternativ enerji mənbələrindən istifadə üçün stimul yaradır:** "Neftin hazırkı qiyməti alternativ enerjidən daha ucuz başa gəlir. Hazırda neft istər günəş enerjisindən, istər külək enerjisindən daha ucuzdur. Ancaq neftin qiyməti yüksələndə avtomatik olaraq alternativ enerjinin nisbi qiyməti ucuzlaşmış olur. Neft 50 dollar olanda, mən külək enerjisinə yatırım etmirəmsə, günəş enerjisi də sərf etmir, amma neft 150 dollar olanda alternativ enerji mənə daha sərfəli görünməyə başlayır. Bu səbəbdən dünya üzrə alternativ enerjiyə yatırım artır. Nəticədə gələcəkdə neftin istehsalının artması ilə yanaşı, alternativ enerji qaynaqlarının miqdarı da çoxaldığına görə "qara qızıl"a olan tələbat ikiqat azalmış olur. Çünki artıq alternativ enerji var".

**Elnur Soltanovun sözlərinə görə, yüksək neft qiymətinin arzu edilməməsinin digər bir səbəbi də odur ki, bütün dünyada istehsal məhsulları bahalaşır:** "XIX əsrin sonlarından etibarən demək olar ki, dünya sənayesini neft olmadan düşünmək mümkün deyil. Bu səbəbdən neftin bahalaşması bütün ölkələrdə olan istehsalatın, əmtəə məhsullarının bahalaşması deməkdir. Dünyada neftə tələbatı olan ölkələr çoxdur, ancaq hasilatçı ölkələrin sayı azdır. Bir çox ölkə nefti idxal edir. Bahalı neft idxal etdiyi üçün almanların istehsal etdiyi avtomobildən tutmuş Çinin istehsal etdiyi elektronikaya qədər hər növ məhsulun qiyməti artır. Bütün dünyada bir qiymət artımı - inflyasiya yaşanır. İnflyasiya yaşananda isə istər-istəməz iqtisadiyyatlar balacalaşır, tələbat azalır, insanlar vəsaitlərini daha çox qorumağa başlayırlar.".

**Bəs neftin hansı qiyməti Azərbaycan üçün daha sərfəlidir? Ölkəmizdə istehsal edilən neftin maya dəyəri orta hesabla neçə dollar təşkil edir?**

**Bu sualları cavablandıran Elnur Soltanov bildirdi ki, Azərbaycan neftinin maya dəyərini konkret rəqəmlə ifadə etmək çox çətindir:** "Bu sualın müxtəlif cavabları var. Çünki buraya boru xətləri ilə daşınmanın da maliyyəti əlavə oluna bilər. Bundan başqa, BP-nin istifadə etdiyi texnologiyalar fərqlidir, fərqli quyuları var, SOCAR-ın texnologiyaları fərqlidir və fərqli quyuları var. Bir quyudan alınan neftin maya dəyəri başqa quyudan çıxan neftin maya dəyərindən fərqlidir. Ancaq ümumi götürəndə Azərbaycan nefti maliyyət olaraq dünyanın ən ucuz neftlərindən sayılır, bunun əksinə bazar dəyəri ən yüksək olan neftlərdən sayılır. Azərbaycan neft Venesuela neftindən, "Brent" neftindən, Qərbi Texas neftindən daha bahadır. Ancaq maya dəyəri daha aşağıdır. Orta hesabla kobud şəkildə ifadə etsək, Azərbaycan neftinin maya dəyəri 20 dollardan xeyli aşağıdır. Dövlət büdcəsində neftin bir barelinin qiyməti 45 dollardan hesablansa da, bugünkü qiymətlər Azərbaycan üçün xoşagələn bir səviyyədədir".

❑ **Nərgiz LİFTİYEVA,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 19 (6908) 26 yanvar 2018

# Ermənişünas alimdən erməniləri vahiməyə salan proqnoz

## Qafar Çaxmaqlı: “Türkiyə PKK-nı axıra qədər qovmağa qərarlıdır, terrorçular Dağlıq Qarabağa yerləşsə, onları məhv etmək üçün əməliyyatları bu ərazilərə keçirə bilərlər”

**2016-cı ilin aprelində Azərbaycana qarşı döyüşən erməni, PKK və YPG terrorçuları bu gün Suriyada “Zeytun budağı” əməliyyatında Türkiyə ordusuna qarşı vuruşur.**

Bunu AzVision.az-a açıqlamasında Türkiyədə fəaliyyət göstərən Əsassız Erməni İddialarına qarşı Mübarizə Dərnəyinin (ASİMDER) başqanı Göksel Gülbey deyib. G.Gülbey vurğulayıb ki, Suriyada yaşayan ermənilər hər zaman Türkiyəyə qarşı olublar: “Onlar ya Əsədin yanında, ya da YPG terror təşkilatının tərkibində Türkiyəyə qarşı döyüşüblər. Ermənilərin YPG və PKK ilə birlikdə hərəkət etdiklərini dəfələrlə bildirmişik. 2016-cı ilin aprel döyüşləri zamanı İran və Türkiyənin Ağrı dağı bölgəsindən keçərək Ermənistana dəstək üçün 400 nəfər PKK və YPG yaraqlısı gedib. Onların 150-si Suriya ermənisi, 250-si isə Suriya və Türkiyə mənşəli PKK üzvü kürdlər idi”.

**ASİMDER rəhbərinin sözlərinə görə, Türkiyədə yaşayan ermənilərin katolikosu türk ordusuna müvəffəqiyyət arzulasa da, onun səmimiliyi inandırıcı deyil:** “Katolikos Almaniyada yaşayan ermənilərin ruhani lideri Qaraqin Bekçiyandır. Bu adam Avropada və Almaniyada HDP, yəni PKK və YPG-nin siyasi qanadı olan partiyaya səs toplayıb. Belə bir düşüncəyə sahib birinin Türk ordusuna müvəffəqiyyət arzulaması nə qədər inandırıcı ola bilər? Bu baxımdan katolikosun səmimiliyinə inanmıram və ermənilərə güvənmirəm”.

Əvvəllər də xəbər verdiyimiz kimi, Azərbaycanın işğal altında olan əraziləri erməni-kürd terrorçuları üçün sığınacaq və təlim yerinə çevrilib. Bu mənada Afrin əməliyyatı uğurla başa çatdıqdan sonra Azərbaycan və Türkiyənin Qarabağda da hərbi əməliyyatlar həyata keçirib terrorçuları məhv edəcəyi barədə hətta erməni ekspertlər belə proqnozlar verirlər. **Ermənistan milli elmlər akademiyasının şərqşünaslıq institutunun direktoru, politoloq Ruben Safrastyan Afrin əməliyyatının İrəvan üçün təhlükəli nəticələrə səbəb ola biləcəyini açıq etiraf edib.** “Əgər Türkiyə qalib gələrsə, bu, Dağlıq Qarabağda vəziyyətin Ermənistanın əleyhinə dəyişəcəyi ilə nəticələnəcək. Çünki bölgədə güclənən Türkiyə Azərbaycanla birləşərək, Qarabağ məsələsinin tezliklə həllini tələb edəcək. Nəzərə almalıyıq ki, bu gün Azərbaycan özlüyündə güclüdür” - erməni ekspert deyib.



Qafar Çaxmaqlı

**Ermənişünas alim Qafar Çaxmaqli isə “Yeni Müsavat”a bildirdi ki, Ermənistan Azərbaycanla münaqişədə olduğu bütün zamanlarda “kürt kartı”ndan istifadə edib:** “Həm də Türkiyəyə qarşı terror fəaliyyətlərində PKK-ya yardım edib. Əştərəkdə və Ələyəzdə təlim düşərgələrinin olduğu da mətbuatda yer alıb. Bu, rəsmən inkar edilsə də, əsir düşən PKK-lı Ermənistanda təlim keçdiklərini etiraf edib. Dağlıq Qarabağla Ermənistan arasındakı bölgəyə kürdlərin yerləşdirilməsi və burada, Laçın və Kəlbəcərdə bir ”Kürdüstan" kantonu yaratmaq planı da olub. Vəkil Mustafayev adlı bir kürd də burada “Kürdüstan respublikası” elan etmişdi. PKK-nın önəmli fiqurlarından olan Cemil Bayığın Dağlıq Qarabağa bu mövzunu müzakirə etmək üçün gəlib-getdiyi barədə məlumatlar vardı. PKK-nın nə üçün burada özünə bir “yuva” qurmamasının bir çox səbəbləri var. Onlar ağırlığı Türkiyənin cənub-şərqinə vermişdilər. “Çözüm süreci” zamanı onlar Türkiyənin bu bölgələrində müstəqil bir kürd dövləti quracaqlarına inanırdılar. Beynəlxalq imperializm də bunu belə bilirdi. Amma Türkiyə yaxşı ki, bu təhlükəni vaxtında gördü və siyasət tamamilə dəyişdi".

**Q.Çaxmaqlı qeyd etdi ki, hazırda Afrində PKK uzantıları sıxışdırılarkən Dağlıq Qarabağ məsələsi yenidən gündəmdədir:** “Amma Ermənistan buraya kürdlərin axınına isti münasibət göstərmir, bununla ermənilər Türkiyənin əlinə ”bəhanə" vermək istəmirlər. Çünki Türkiyə PKK-nı axıra qədər qovmağa qərarlıdır, terrorçular Dağlıq Qarabağa yerləşsə, onları məhv etmək üçün əməliyyatları bu ərazilərə keçirə bilərlər. Belə bir situasiya ola bilsin ki, gələcəkdə yarana bilər. Azərbaycan bütün bunları ehtiyat variant olaraq əlində saxlamalı və bu istiqamətdə təbliğat işini genişləndirməlidir". **Ekspert Afrin variantının Dağlıq Qarabağda tətbiqini mümkünsüz hesab etmir:** “Afrin variantına uyğun olaraq Qarabağda antiterror əməliyyatları keçirmək indiki halda uyğun görünməsə də, qarşıda bu təcrübəni tətbiq etmək məqbuldur, bütün beynəlxalq normalara uyğundur. Türkiyə öz güvənliyini sərhədlərindən kənarda belə apara bilirsə, Azərbaycan öz ərazisində bunu nədən etməsin? Məncə, bu addımı atarkən bəzi ölkələri məlumatlandırmaq kifayət edəcək. Ona qədər isə Minsk Qrupu ölkələrinin vasitəçiliyindən imtina etmək lazımdır. Bunun üçün kifayət qədər əsaslarımız var. Bunlardan daha öncəki müsahibələrimizdə bəhs etmişik”. **Q.Çaxmaqlı Ermənistan prezidentinin AŞ PA tribunasından səsləndirdiyi son bəyanatın da Azərbaycana Minsk Qrupunun fəaliyyətindən imtina baxımından əlavə əsaslar verdiyini təsdiqlədi:** “Sərkisyan bunu dəfələrlə təkrar edib. Ermənistanda Dağlıq Qarabağın Azərbaycanın tərkibində olması fikri yoxdur. Müharibəsiz onların Dağlıq Qarabağı Azərbaycanın hər hansı şəkildə nəzarətinə vermək variantları yoxdur. Ancaq eyni zamanda Ermənistanda təbii ki, Afrin əməliyyatından sonra Qarabağda da hərbi əməliyyatların aparılacağı qorxusu var”.

❑ **E.PAŞASOY,**
**“Yeni Müsavat”**

# Köhnə “qurd”ların Cənubi Qafqaz uğrunda mübarizəsi

## Siyasi ekspert: “Cənubi Qafqazda keçiriləcək seçkilərə münasibətdə Bill Klintonun və Corc Buşun dövründəki ənənəyə qayıdacaqlar”

**ABŞ-ın son illər Cənubi Qafqaz bölgəsində mövqelərini itirdiyi, Rusiyanın isə möhkəmləndiyi görüntüsü var. Son günlər mediada yazılan şərhlər və məlumatlarda belə fikir irəli sürülür ki, ABŞ 10 ildən sonra yenidən bölgəyə qayıdır. Bunun üçün qarşıdakı dönəmdə konkret addımlar atılacaq.**



Bu mövzuda “Yeni Müsavat”a şərhində siyasi şərhçi **Yeganə Hacıyeva** bildirdi ki, Rusiya faktoru Amerikanın qarşısında ən böyük maneədir. Cənubi Qafqaz Rusiyanın strateji maraq dairələrinə daxil olan bölgədir. Bu birmənalıdır. Son iki yüz ildə Rusiyanın Cənubi Qafqazda mütləq nəzarəti, mütləq üstünlüyü hökm sürür. Son iki yüz il ərzində bu bölgədə heç bir qüvvə Rusiya qədər güclü olmayıb. Bu gün də belədir: “Rusiyanın bu regiondakı dövlətlərin hər birində hökumət, müxalifət və vətəndaş cəmiyyəti institutlarında təmsilçiliyi, təsir gücü var.

Rusiyanın xarici siyasətində yeni dalğanın təzahürlərini onun Cənubi Qafqaz siyasətində hiss etməkdəyik. Bu bir reallıqdır. Məsələ ondadır ki, Rusiya bir imperiya varisi olsa da həmişə zamanın diktə etdiyi yeni mübarizə üsullarına həmişə açıqdır. Bu mübarizə üsullarından öz təsir dairəsi olan regionları nəzarət altında saxlamaq üçün istifadə edir. Sovetlər birliyi dağılandan sonra indiyə qədər keçən dövrdə də Rusiyanın Cənubi Qafqazın hər üç ölkəsinə təsiri, orada mövcudluğu ABŞ-ın təsirindən daha çox olub. Bu gün də belədir. Səthi yanaşanda belə təəssürat yarana bilir ki, burada ABŞ-ın təsiri müəyyən dövrlərdə daha çox olub, Rusiya amili ciddi olmayıb. Lakin alt qata vardıqda görünür ki, şimal qonşumuz bu bölgədə proseslərə ABŞ-dan qat-qat artıq dərəcədə təsir edir. Bu gün də məhz belədir".

**Ekspert qeyd edti ki, Cənubi Qafqaz qitələrarası qovşaqdır, keçiddir. Buraya nəzarət edən istənilən qüvvə Asiya və Avropa arasında, həmçinin Yaxın Şərq arasında balansı qorumuş olur. Cənubi Qafqazın ən strateji ölkəsi isə Azərbaycandır:** “Ona görə də bütün dünya güclərinin təsir dairəsində saxlamağa çalışdığı, nəzarətini gücləndirmək istədiyi ölkə Azərbaycandır. Ermənistan faktiki olaraq Rusiyanın forpostudur, Gürcüstan isə artıq öz istiqamətini seçib. Amma Azərbaycan bu üç ölkə içərisində ən müstəqil, güclər arasında balanslı siyasətini qoruyaraq öz maraqlarına uyğun siyasət yürüdən bir ölkədir. Azərbaycan həm Rusiya, həm ABŞ-la öz maraqlarının ətrafında əməkdaşlıq istəyir. ABŞ-ın Cənubi Qafqazda mövcudluğu SSRİ dağılandan sonra son 25 ildə artan xətt üzrə inkişaf edib. Bu, zaman-zaman tədrici olaraq həyata keçirilib. Amerika Cənubi Qafqazda əsasən Gürcüstanda möhkəmlənib və Vaşinqtonun seçimi Gürcüstan olub. Amerika hesab edirdi ki, Gürcüstanda möhkəmlənməklə bütövlükdə Cənubi Qafqaza nəzarət etmək mümkündür. Amma bu yanaşma özünü doğrultmadı. 2009-cu ildən sonra ABŞ-ın Cənubi Qafqaza təsiri, təmsilçiliyi sürətlə zəiflədi. Lakin nəzərə almaq lazımdır ki, zəifləsə də tamamilə aradan qalxmadı. Yəni Amerika bölgədən tamamilə çıxmayıb ki, indi qayıtsın. Sadəcə olaraq, indiki Tramp administrasiyası Barak Obamanın dövrünün yanlış Cənubi Qafqaz siyasətini düzəltməyə çalışır. Tramp adioz siyasətçidir, ABŞ-ın müasir siyasətində gəlib-gedən ən qalmaqallı prezidentdir. Onun Cənubi Qafqaza necə yanaşacağı hələ qarşıdakı dönəmdə tam bəlli olacaq. Bu yaxınlarda Trampın Milli təhlükəsizlik strategiyası açıqlandı. Cənubi Qafqaz orada önəmli yer tutur. Ora diqqətlə baxanda görürük ki, Trampın nəzarəti altında Amerika yenidən Cənubi Qafqazda möhkəmlənməyə çalışacaq. Cənubi Qafqazda keçiriləcək seçkilərə münasibətdə Bill Klintonun və Corc Buşun dövründəki ənənəyə qayıdacaq. Lakin Rusiyada sərt Putin siyasəti qaldıqca Amerikanın Cənubi Qafqazda xeyrinə ciddi nə isə dəyişməyəcək”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 19 (6908) 26 yanvar 2018

# Neftin qiymətini necə hesablayaq: 119 manat, yoxsa 70 dollar...

## Ekspertlər mövcud qiymət-məzənnədən hökumətin əldə etdiyi qazancı göstərdilər

**Dünya bazarında Azərbaycan neftinin qiyməti 70 dollar ətrafında dəyişir. Dolların manata nəzərən məzənnəsinin yüksək olması cəmiyyətdə böhrandan əvvəlki dövrə nisbətən Azərbaycanın neft satışından daha yüksək gəlir əldə etməsi təəssüratını yaradır. Belə ki, böhrandan əvvəl neft 100 dollar olanda bir bareldən 78 manat, indiki qiymətlərlə isə barelin 70 dollar olduğu şəraitdə 119 manat gəlir əldə edilir. Bundan əlavə, hesab olunur ki, hökumətə dolların indiki məzənnəsi sərf etdiyi üçün manatın möhkəmlənməsinə imkan vermir, müxtəlif yollarla məzənnəni saxlayır.**

**İqtisadçı-ekspert Rəşad Həsənovun** sözlərinə görə, hazırkı qiymət tədiyə balansını qorumaq üçün müəyyən müsbət təsirlər formalaşdırır: "Lakin diqqəti başqa bir istiqamətə yönəltmək lazımdır. Azərbaycanda demək olar ki, ciddi istehsal yoxdur, manat isə dəyərini, faktiki olaraq, 2 dəfə itirib. Bu gün ola bilsin ki, neftin qiyməti manatla ifadədə əvvəlkindən daha yüksəkdir. Lakin idxal olunan mal və xidmətlərin dəyəri prizmasından yanaşdıqda, görürük ki, ölkə itirir. Yəni əvvəl 1 dollarlıq mal üçün ölkədən 78 qəpik çıxırdısa, indi 1,7 manat çıxır. Azərbaycan məcmu tələbin əksər istiqamətlərində idxaldan asılıdır. Belə bir şəraitdə də manatla ifadədə neftin qiymətinin necə olmasından asılı olmayaraq, neftin dollarla qiyməti ölkə üçün daha əhəmiyyətlidir".




**Ekspertin fikrincə, neftin manat dəyərinin daha yüksək olması büdcə gəlirlərinin təmin olunması baxımından müsbət amil sayıla bilər:** "Lakin nəzərə almaq lazımdır ki, büdcədən xərclənən vəsaitlərin böyük bir hissəsi dollarla alınan mal, məhsul və avadanlıqların alınmasına xərclənir. Bu zamansa daha çox büdcə vəsaiti sərf olunur, istehlakda dəyərsizləşmə gedir. Rəqəmsal ifadədə götürəndə, büdcənin həcmi baxımından böhrandan əvvəlki 2014-cü ilin səviyyəsini bərpa etmişik demək olar. Yəni büdcə həmin ildəki kimi 20 milyard manata çatıb. Lakin dollar ifadəsində hesablayanda tamam fərqli mənzərə çıxır - 2014-cü ildə büdcəmiz 25 milyard dollar idisə, indi 12 milyarda belə çatmır. Yəni manat kimi, büdcəmiz də 2 dəfə dəyərsizləşib".

**İqtisadçı-ekspert Pərviz Heydərov hesab edir ki, məsələyə hərtərəfli yanaşmaq lazımdır:** "Hökumətin neftin manat qiymətinin daha yüksək olmasından əsas qazancı valyuta ehtiyatlarının qorunmasının asanlaşmasındadır. Nefti çıxaran və satan SOCAR-dır, bir də Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti. Bunlar satdığı neftdən əldə etdikləri gəlirə görə büdcəyə vergi ödəyirlər, gəlirin bir hissəsi də dövlətin payı olaraq Neft Fonduna yığılır. Burada bir qazanc ondadır ki, Neft Fondundan büdcəyə transfert zamanı daha az dollar konvertasiya edilir. Yəni daha az dollar xərcləməklə Neft Fondu öz vəsaitlərini qoruyub saxlaya bilir. Hökumətin əsas məqsədi budur ki, 2020-ci ildə qazımız dünya bazarına çıxarılanadək maksimum şəkildə valyuta ehtiyatlarımızı qorusun. Çünki valyuta ehtiyatları qorunmasa ölkədə makroiqtisadi sabitliyin pozulması, xarici şokların təsirindən əldən getməsi şansları daha böyükdür. Təsəvvür edin ki, 2015-ci ildə 2 dəfə kəskin devalvasiyaya gedilməsi ilə bərabər, Mərkəzi Bank 15 milyard dollardan çox valyuta ehtiyatını itirdi. Neftin yüksək qiyməti şəraitində Mərkəzi Bank o vəsaitləri toplamasaydı, biz neyləyərdik? Hələ o qədər vəsait sərf olunub, biz devalvasiyaların təsirindən çıxa bilməmişik, olmasaydı, görün, hansı vəziyyətə düşərdik? Sosial ödənişləri, əmək haqlarını ödəyə bilməyəcəkdik. Bunun qarşısını almaq üçünsə 90-cı illərdə olduğu kimi, hökumət beynəlxalq maliyyə qurumlarından kreditlər almağa, irihəcmli borclanmalara getməyə məcbur olacaqdı".

**P.Heydərov deyir ki, hazırda ölkədə manatın möhkəmlənməsinə gətirəcək şərtlər olsa da, hökumət buna imkan vermir:** "Büdcəni dolların hazırkı qiyməti ilə rahatlıqla icra etmək, valyuta ehtiyatlarına qənaət etmək mümkün olur. Valyuta ehtiyatları Azərbaycana bu gün hava və su kimi lazımdır. Qarşıda böyük layihələr var, üstəlik, heç kim təminat verə bilməz ki, neftin qiyməti yenidən ucuzlaşmayacaq. Hökumət bütün bunları nəzərə alaraq ehtiyatlı siyasət yürüdür".

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

# Ələt Azad İqtisadi Zonasına müstəsna status verilir

## Deputatlar qanun layihəsini müzakirə etdilər

**Yanvarın 24-də Milli Məclisin 3 komitəsinin birgə iclası keçirilib və Ələt Azad İqtisadi Zonasının yaradılması ilə bağlı qanun layihəsi müzakirə olunaraq Milli Məclisin müzakirəsinə göndərilib. İclasda Hüquq siyasəti və dövlət quruculuğu, Təbii ehtiyatlar, energetika və ekologiya və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrindən olan deputatlar iştirak edib.**

Əvvəlcə Milli Məclis sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov bildirib ki, bu sənəd prezidentin "Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən hazırlanıb. "Ələt azad iqtisadi zonası haqqında" qanun layihəsini dövlətimizin başçısının "Azad iqtisadi zonalar yaradılması işinin sürətləndirilməsi haqqında" 2017-ci il 31 may tarixli Sərəncamına əsasən təşkil edilmiş İşçi Qrup hazırlayıb.



İclasda iştirak edən deputatlar da müzakirələrdə iştirak edərək, dünya praktikasına istinadən azad iqtisadi zonaların fəaliyyətindən söz açıblar, onların uğurlarını və gəlirlərini şərtləndirən amilləri diqqətə çatdırıblar. Deputatlar qeyd ediblər ki, azad zonaların fəaliyyəti iqtisadiyyatın davamlı inkişafına və rəqabət qabiliyyətinin artmasına təkan verəcək, Azərbaycanın ixrac potensialını gücləndirəcək.

"Ələt azad iqtisadi zonası haqqında" qanun layihəsi yekdilliklə Milli Məclisin müzakirəsinə tövsiyə olunub.

**Bəs görəsən, qanun layihəsində hansı önəmli məqamlar yer alır? Ələt İqtisadi Zonasının üstünlükləri nələr olacaq?**

**Bu sualları Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov cavablandırdı. Deputat bildirdi ki, bu çox əhəmiyyətli və perspektivli bir qanun layihəsidir:** "Biz hələ 2009-cu ildə "Xüsusi İqtisadi Zonalar haqqında" Qanun qəbul etmişdik. Müəyyən dövr ərzində bu cür iqtisadi zonaların yaradılmasına cəhdlər oldu, ancaq çox təəssüflər olsun ki, yaradılmadı. Çünki qanun keyfiyyətli qanun deyildi və bu qanunda müəyyən məhdudiyyətlər var idi. Hətta Sumqayıtda müəyyən texnoparklar yaradıldı, müəyyən vergi və gömrük güzəştləri edildi, ancaq azad iqtisadi zona yaradıla bilmədi. Bütün bunları nəzərə alan dövlət başçısı Milli Məclisin sədr müavini Valeh Ələsgərovun sədrliyi altında Ələt İqtisadi Zonası ilə əlaqədar xüsusi bir işçi qrup yaratdı. Bu işçi qrup Ələt İqtisadi Zonasının yaradılması ilə bağlı qanun layihəsi işləyib hazırladı. Biz də ötən gün 3 komitə birlikdə bu qanun layihəsini müzakirə etdik. Bu xüsusi bir qanun layihəsidir. Azərbaycana investorların gəlməsi üçün, belə bir azad ticarət zonasının fəaliyyət göstərməsi üçün çox əhəmiyyətli və perspektivli bir qanundur. Ölkəmizdə son zamanlar aparılan islahatlar, xüsusilə nəqliyyat dəhlizlərinin həyata keçirilməsi, Bakı-Tiflis-Qars dəmir yolunun istifadəyə verilməsi, Ələt Ticarət Limanının tikintisi, bir çox transmilli layihələrin həyata keçirilməsi artıq bizə şərait yaradır ki, belə bir qanun layihəsi qəbul edilsin və Ələt Xüsusi İqtisadi Zonası yaradılsın. Bu qanun layihəsi məhz bununla əlaqədardır".

**V. Əhmədovun sözlərinə görə, qanunda Ələtdə çox güclü, çox geniş bir istehsalat parkının yaradılması nəzərdə tutulur:** "Oraya kənardan müdaxilə, ümumiyyətlə, mümkün deyil. Vergi güzəştləri, gömrük güzəştləri tətbiq olunur. İnzibati qaydada yoxlamalar ümumiyyətlə yoxdur. İdarəetmə demokratik qaydada Ələt İqtisadi Zonasının rəhbərliyi tərəfindən həyata keçirilir. Bu qanun qəbul edildikdən sonra bütün məsələlər digər qanunlarla da uyğunlaşdırılacaq, müəyyən əlavə sənədlər qəbul ediləcək. Bu qanun Azərbaycan iqtisadiyyatının cəlbediciliyini artırmaq üçündür. İnvestorlar qanunu oxuyanda normal qaydada başa düşməlidirlər və ölkəmizə sərmayə qoymağa meylli olmalıdırlar. Bu, Azərbaycan üçün önəmli bir işdir".

**Deputat vurğuladı ki, əgər Ələt İqtisadi Zonası qanunda nəzərdə tutulduğu kimi həyata keçirilə bilsə, bunun davamı da olacaq:** "Gələcəkdə şimalda və cənubda dənizə yaxın sahələrdə də belə iqtisadi zonalar yaratmaq mümkün olacaq. Qanun hazırlanarkən dünya təcrübəsi nəzərə alınıb. Xüsusilə Dubayda yaradılan vəziyyət, oradakı iqtisadi zonalar, digər dövlətlərdəki bu nümunələr nəzərə alınıb. Bildiyiniz kimi, dünyada 1000-dən çox iqtisadi zona var. Bu iqtisadi zonalarda dünya ticarətinin təxminən 25-30 faizi həyata keçirilir. Ona görə də bizim üçün də bu çox vacibdir. Azərbaycandakı indiki şərait, indiki iqtisadi islahat imkan yaradır ki, belə bir iqtisadi zona bizdə də yaradılsın".

Azad zona ölkə ərazisinin xüsusi rejim altında fəaliyyət göstərən bir hissəsidir. Belə zonalarda istehsal olunan məhsullara milli gömrük ərazisindən kənarda olan obyekt kimi baxılır. Həmin məhsullar gömrük nəzarətindən keçirilmir, vergiyə cəlb edilmir.

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**




# Bayıl çatı böyüyür: hökumət ayaqda, sakinlər təlaş içərisində

## Yaranmış vəziyyət hökumətin müvafiq strukturlarını hərəkətə keçirdi; köçürülən sakinlərə kirayə haqqı veriləcək, amma narazılıqlar var

**Bayıl yamacında, Bakı Televiziya Qülləsinin yaxınlığındakı sürüşmə zonasında təhlükə getdikcə artır. Günlərdir ki, ərazidə müvafiq qurumlar tərəfindən bərkitmə işləri aparılır, sürüşmə nəticəsində əmələ gələn yarğanlara gil doldurulur. Lakin bütün bunlara baxmayaraq, təhlükənin miqyası getdikcə böyüməkdə davam edir. Bu səbəbdən də yanvarın 24-də Səbayel Rayon İcra Hakimiyyətində yaradılmış xüsusi qərargahın iclası keçirilib. İclasdan sonra Səbayel Rayon İcra Hakimiyyəti və Polis İdarəsinin əməkdaşları həmin ərazidə olaraq sakinlərlə görüşüblər.**

Təhlükəsizlik nöqteyi-nəzərindən sakinlərə müvəqqəti olaraq mənzillərini tərk etmələri, qohumları və yaxınlarının evlərinə köçmələri təklif olunub.

Bununla paralel olaraq, sakinlərin köçürülməsi üçün əraziyə yaxın məsafədə yerləşən 49 və 163 saylı məktəblərdə müvəqqəti sığınacaq yaradılıb. Rəsmi məlumatlara görə, yanvarın 24-dən 25-nə keçən gecə məktəbdə 47 nəfər qalıb.

"Yeni Müsavat"ın əməkdaşı sürüşmə zonasında olub, ümumi vəziyyətlə maraqlanıb. Səhər saatlarında əraziyə çatdığımız zaman artıq sakinlərin bir qismi sığınacaqlardan geri qayıtmışdılar. Onlar uçma təhlükəsi olan yerdə samovarlar qaynadıb, evlərini tərk etməyəcəklərini bildirirdilər. Şikayətlənirdilər ki, gedəcək yerləri yoxdur, məktəbdə yaradılan şərait isə yaşanılası halda deyil.

Qeyd edək hazırda Bayıl ərazisində 70-ə yaxın ev torpaq altında qalma təhlükəsi ilə üz-üzədir. Köçürülən sakinlər də məhz bu evlərin sahibləridir. Sürüşmə ərazisinə yaxın yerləşən evlərin əksəriyyətinin sənədi yoxdur. Burada məskunlaşanlar əsasən Cəbrayıl, Zəngilan rayonlarından məcburi köçkünlər, eləcə də işğal altında olmayan digər bölgələrimizdən olan insanlardır. Evlərin əksəriyyəti dağ yamacına çəkilən istinad divarına çox yaxın məsafədə tikilib. Yamacda tikilən evlər artıq sürüşmə nəticəsində qəzalı vəziyyətə düşüb, divarlarında böyük çatlar əmələ gəlib. Ərazidə gəzdiyimiz zaman öyrəndik ki, Telman Aslanov, Raya Həsənovanın mənzilləri tamamilə qəzalı vəziyyətdədir. Bu evlərin divarlarında yaranan dərin çatlar səbəbindən orada qalmaq təhlükəlidir. Hər iki ev yamacda tikilib və sürüşmə baş verərsə, ilk olaraq bu evlər torpaq altında qalacaq. Ancaq hər iki evdə yaşayış var. Ev sahibləri bildirirlər ki, məcburi köçkündürlər və qohumlarının da evləri kiçik olduğu üçün gedəcək yerləri yoxdur. Ona görə də uçqun baş versə də burada qalacaqlar.

Öyrəndik ki, köçürülmə prosesindən sonra əraziyə qazın, elektrik və suyun verilişi də dayandırılıb. Elə buna görə də yaxınlıqda yaşayan və hələ evlərindən köçürülməyən sakinlər də səhər saatlarında sürüşmə zonasına toplaşıb, etiraz aksiyası keçirirdilər. Onlar bildirirdilər ki, nə baş versə də evlərini tərk etməyəcəklər. **Zəngilan rayonundan məcburi köçkün Əminə Nuriyeva bildirdi ki, onların evlərinin sürüşmə zonasına heç bir aidiyyəti yoxdur, ancaq bütün kommunal xətlərini kəsiblər:**

"Məcburi köçkün düşəndən sonra bu ərazidə yaşayıram. Torpaqlarımız uğrunda oğlum şəhid olub. İndi gəliblər ki, evini tərk etməlisən. Halbuki bizim ev iki küçə buradan aşağıdadır. Erməni bizi qovdu, gəldik burada məskən saldıq. Buradan hara gedək? Qazımızı, işığımızı kəsiblər. Heç bir yerə gedəsi deyilik. Çünki gedəcək yerimiz yoxdur. Gedəcək yerimiz düşmən tapdağı altındadır. Orada oğlum şəhid olub, özüm də burada torpağın altında qalıb, ölməyə hazıram. Ancaq heç yerə gedəsi deyilik".






Digər sakinlər də oxşar fikirlər səsləndirərək söylədilər ki, bu gecə öz evlərində qalacaqlar və heç bir yerə çıxmaq fikirləri yoxdur.

Biz orada olduğumuz zaman sürüşmə baş verən ərazidə Fövqəladə Hallar Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları işləyirdilər. Onlar bildirdilər ki, sürüşmə nəticəsində yaranan yarğanın eni hər gün 2 santimetr böyüyür. Ona görə də əhalinin təhlükəsizliyini nəzərə alıb, onları buradan kənarlaşdırırlar. Söylədilər ki, sakinlər evlərini tərk etmək istəməsələr də təhlükənin miqyası böyükdür.



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov da "Yeni Müsavat"a bildirib ki, Bayıldakı sürüşmə zonasında son zamanlar vəziyyət həqiqətən ciddiləşib:** ""Bayılov dərəsi" adlanan ərazidə 80 metr uzunluğunda çat yaranıb. Həmin ərazidə hələ ötən ilin noyabrında bir neçə santimetrlik müxtəlif çatlar qeydə alınmışdı. Son 3 ay ərzində çat 8 metrə qədər artdı. Sürüşmə artıq rayonun təxminən 7 hektar ərazisini əhatə edir. Yaşayış evlərinə ziyan dəyib, əhalinin təxliyəsinə başlanıb. Torpağın yarıldığı yerlərdə aralanan hissələr 20-25 santimetr təşkil edir. Yamacda tikinti aparıldığı üçün ağırlıq olub və hazırda bu ərazi olduqca təhlükəlidir".

Yuxarıda da qeyd etdiyimiz kimi, sakinlərin bir qismi 163 və 49 saylı orta məktəb binalarında gecələyiblər. Onlardan bəziləri gündüz vaxtı da 163 saylı orta məktəbdə qalıb, sürüşmə zonasında olan evlərinə getməyiblər. Məktəbə gedib, həmin sakinlərlə də görüşməyə cəhd etdik. Lakin jurnalistlərin içəri buraxılmasına qadağa qoyulduğu üçün bu istəyimizə nail ola bilmədik.

Orada öyrəndik ki, Səbayel Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov 163 saylı orta məktəbdə olub və sakinlərlə görüşüb. Eldar Əzizov həmçinin sürüşmə zonasında görülən işlərlə də tanış olub. İcra başçısı vətəndaşların yerləşmə şəraiti və digər problemləri ilə maraqlanıb.

Səbayel Rayon İcra Hakimiyyətinin yaydığı məlumata görə, Bayılda sürüşmə ərazisində araşdırma aparan mütəxəssislər həmin dağ yamacının altından iki yeraltı çayın axdığını müəyyən ediblər. Bu çaylarda suyun səviyyəsinin dəyişməsi, eləcə də yağıntıların səviyyəsinin artması sürüşməyə səbəb olan amillərdən hesab olunur.

Bildirilir ki, artıq bu məsələ ilə bağlı Nazirlər Kabineti tərəfindən müvafiq qərar qəbul olunub. Sürüşmə zonasından çıxarılan 80 ailə, 390 nəfərə bu aydan etibarən müvəqqəti olaraq kirayə haqqı ödəniləcək.

Qeyd olunur ki, hazırda Ekologiya və Təbii Sərvətlər Nazirliyi və digər qurumlarla birgə ərazidə araşdırma aparılır. Nəticə müəyyən olunanadək sakinlər kirayə haqqı ilə təmin olunacaq. Nəticədə bəlli olduqdan sonra çıxarılan rəyə uyğun tədbirlər görüləcək. Əgər ərazidə təhlükə davam edərsə, vətəndaşlara birdəfəlik kompensasiya verilərək ərazidən köçürülmə məsələlərinə baxılacaq.

Lakin biz orada olduğumuz zaman sakinlər söylədilər ki, onlara hər hansı bir kompensasiya təklif edilməyib, kirayə haqqı ödənilməyib. Sakinlər günorta saatlarında yaxınlıqda olan qohumlarının evlərində nahar etmək üçün dağılışsalar da günortadan sonra yenidən küçələrə çıxdılar.

**Məlumat vardı ki, baş nazirin müavini Abid Şərifov əraziyə gəlib, sakinlərlə görüşəcək. Ona görə də heç kim ərazini tərk etmirdi. Amma sonradan bilindi ki, Abid Şərifov sürüşmə ilə bağlı Nazirlər Kabinetində təşkil olunan müşavirədədir və əraziyə gəlməsi gözlənilmir. Bildirildi ki, müşavirədə sürüşmənin qarşısının alınması üçün təkliflər səsləndiriləcək və görüləcək tədbirlər müəyyənləşdiriləcək:**

"Prosesin başvermə səbəbləri, onun əhatə dairəsi, təhlükəlilik dərəcəsi, sürüşmə müstəvisinə uyğun olaraq, qabaqlayıcı tədbirlərin görülməsi üçün təkliflər veriləcək. Ərazidə bərkitmə işləri aparılacaq".

**Məlumat üçün qeyd edək ki, sürüşmə zonasında 133 ev qeydiyyatdadır, onlardan 67-si qəzalı ev hesab olunur.**

❑ **Əli RAİS**
❑ **"Yeni Müsavat"**
**Fotolar müəllifindir.**

# Qrip yenidən Bakının "burnunu" tutur

## Baş terapevti Rəhilə Əliyeva:

## "Xəstəliyin ağırlaşmaması üçün özündə zökəm əlamətlərini hiss edən şəxslər həkimə müraciət etsinlər"

**Son günlər Bakıda adi qripin simptomları ilə müşayiət olunan epidemiyaya yoluxma artıb. Xəstələrdə əzələ və baş ağrıları, yüksək hərarət, eləcə də öskürək, boğaz qıcıqlanması, iştahsızlıq, burun tutulması halları müşahidə olunur.**



Bakıda əhali arasında rast gələnən xəstəlik kəskin respirator virus xəstəliyidir. "Trend"in məlumatına görə, bunu Bakı Şəhər Baş Səhiyyə İdarəsinin baş terapevti Rəhilə Əliyeva deyib.

Onun sözlərinə görə, xəstəliyin ağırlaşmaması üçün özündə zökəm əlamətlərini hiss edən şəxslər həkimə müraciət etsinlər.

R.Əliyeva qeyd edib ki, xəstəliklərlə bağlı müraciətlər daha çox mövsüm ərzində - sentyabr-may aylarında daxil olur.

R.Əliyeva bildirib ki, mövsüm ərzində daha çox tənəffüs sistemi, ürək-damar sistemi, mədə-bağırsaq, sümük-oynaq xəstəlikləri ilə bağlı müraciətlər edilir.

**Baş terapevt əlavə edib ki, Kliniki Tibbi Mərkəzin iki terapevtik şöbəsinə ötən ilin sentyabr-dekabr aylarında 378 müraciət daxil olub:** "Müraciətlərin sırasında ilk yeri ürək-damar sistemi xəstəliklərinə görə edilən müraciətlər tutur. Qeyd edilən müddətdə 113 nəfər xəstəxanaya müraciət edib və stasionar müalicə edilib. Sonrakı yerləri isə bronxial astma, pnevmaniya, tənəffüs yollarının iltihabı və s. tutub".

Qrip epidemiyaları dövründə ondan qorunmaq üçün ən yaxşı yol immun sistemini möhkəmləndirmək hesab olunur. Bu məqsəd üçün olan preparatların seçimi çox geniş olsa da, hazırda insanlar daha çox naturopatik preparatlara, yəni bitkilər, minerallar və s. əsasında olan dərmanlara üstünlük verirlər.

Mütəxəssis deyir ki, qripin profilaktikası üçün dərman preparatları ilə yanaşı, şəxsi profilaktika tədbirlərinə də riayət etmək lazımdır. Yəni asqıran və öskürən şəxslərlə yaxın təmasdan qaçmaq, əlləri daim sabunla yaxşıca yumaq, insanların çox toplaşdığı yerlərdə və ictimai nəqliyyatda mümkün qədər az olmaq, sağlam həyat tərzi keçirmək **(doyunca yatmaq, yaxşı və balanslaşdırılmış şəkildə qidalanmaq, fiziki aktivlik və s.)** gərəkdir.

# Bu gün Bakıya ilk qar yağa bilər

**Bakıda və Abşeron yarımadasında yanvarın 26-da buludlu hava şəraitinin üstünlük təşkil edəcəyi, gün ərzində arabir yağış yağacağı, axşama doğru bəzi yerlərdə intensivləşəcəyi, sulu qara keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən lent.az-a verilən məlumata görə, sabah şimal-şərq küləyi əsəcək, arabir güclənəcək.**



Havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 1-3, gündüz 4-6 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında duman olacağı, arabir yağış, bəzi yerlərdə sulu qar, qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı gözlənilir. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 4-7 dərəcə isti, dağlarda gecə 3-8, gündüz 0-3 dərəcə şaxta olacağı gözlənilir.

Tibbi-meteoroloji proqnoza görə, yanvarın 26 - 27-də Abşeron yarımadasında arabir güclənən xəzri küləyi fonunda yağıntılı hava şəraiti meteohəssas insanlar üçün əlverişsizdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi xəbərdarlıq edir ki, yanvarın 26-sı gündüzdən 27-si axşamadək Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı, yağışın sulu qara, qara keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu 3 dərəcəyədək aşağı enəcək.




# FNH bədbəxt hadisələr zamanı ölənləri sayını açıqladı

**2017-ci il ərzində respublika ərazisində 13170 təbii və texnogen mənşəli hadisə baş verib ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1059 hadisə və ya 9% çoxdur. Bu barədə Fövqəladə Hallar Nazirliyi məlumat yayıb.**

Nazirlik bildirb ki, baş vermiş təbii və texnogen mənşəli hadisələr nəticəsində 72 nəfər həlak olub, 334 nəfər xəsarət alıb. Nazirliyin xilasedicilәri tərəfindən 153 nəfər xilas edilib, 1644 nəfər təxliyə olunub.

2017-ci il ərzində baş vermiş yanğınların aradan qaldırılması üçün daxil olmuş müxtəlif çağırışlar üzrə operativ olaraq 12911 çıxış edilib. Onlardan:

çoxmənzilli yaşayış binalarında və fərdi yaşayış evlərində yanğınlar - 2337 çıxış;

açıq sahələrdə yanğınlar - 7763 çıxış;

nəqliyyat vasitələrində yanğınlar - 343 çıxış;

meşə və meşə talalarında yanğınlar -9 çıxış;

digər yanğınlar üzrə - 2459 çıxış təşkil edib.

Yanğın hadisələri zamanı 51 nəfər həlak olub, 225 nəfər xəsarət alıb, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə yanğından həlak olanlar üzrə 3 nəfər və ya 6% az, xəsarət alanlar üzrə 79 nəfər və ya 54% çoxdur.

2017-ci il ərzində respublika ərazisində 84 partlayış hadisəsi baş verib ki, bu da 2016-cı illə müqayisədə 16 hadisə və ya 24% çoxdur. Partlayışlar zamanı 17 nəfər həlak olub, 87 nəfər xəsarət alıb. Nazirliyin xilasedicilәri tərəfindən 1 nəfər xilas edilib, 20 nəfər təxliyə olunub.



# Bakıda türkiyəli iş adamının evindən 110 min dollar oğurlandı

**Bakıda türkiyəli iş adamının evi qarət edilib. Hadisə paytaxtın Suraxanı rayonunda qeydə alınıb. Türkiyə vətəndaşı Selçuk Mahmud oğlu Tapan polisə müraciət edərək yanvarın 23-də yaşadığı evin pəncərəsindəki dəmir barmaqlıqları qırmaqla oradan 110 min dollar, 1000 avro və 4000 manatlıq qızıl-zinət əşyalarının oğurlandığını bildirib.**

Daxil olan məlumat əsasında araşdırmalara başlanıb.

Hazırda hadisəni törədən şəxs və ya şəxslərin müəyyən edilərək tutulması istiqamətində əməliyyat-axtarışlar tədbirləri davam etdirilir.

Qeyd edək ki, Selçuk Mahmud oğlu Tapan Bakıda sahibkarlıq fəaliyyəti ilə məşğuldur.

# Keçmiş arvadını öldürən: "Çox danışırdı"

**Yanvarın 24-nə keçən gecə Suraxanı rayonu, Əmircan qəsəbəsində 33 yaşlı kişinin keçmiş həyat yoldaşını boğaraq öldürməsi hadisəsi ilə bağlı bəzi məqamlar üzə çıxıb. Lent.az xəbər verir ki, Hasil Bayramov küçəsində yerləşən mənzildə 1985-ci il təvəllüdlü Babayev Rahib Telman oğlunun 1992-ci ildə anadan olmuş Orucəliyeva Ülviyyə Sulduz qızını ailə münaqişəsi zəminində öldürdüyü məlum olub.**

Bildirilir ki, onlar rəsmən boşansalar da, birgə yaşamağa davam ediblər. Hətta R.Babayev birgə yaşamalarına baxmayaraq, məhkəmənin 2 övladı ilə bağlı təyin etdiyi aylıq alimenti də ödəyirmiş. Fəhlə işləyən Rahib eyni zamanda ailəsi ilə əlaqələrini kəsməyib. Lakin onunla rəsmən boşandığı həyat yoldaşı arasında vaxtaşırı mübahisələr davam edirmiş.

Yanvarın 23-də axşam saatlarında onlar növbəti dəfə mübahisə ediblər. Daha sonra uşaqlar yatıb. R.Babayev də yuxuya gedib.

Həyat yoldaşını öldürəndən sonra polisə təslim olan 33 yaşlı Rahib Babayev deyib ki, yatandan sonra xanımı onu oyadıb və deyinməyə davam edib. Buna əsəbləşən R.Babayev gecə saat 3 radələrində 26 yaşlı Ülviyyəni boğmağa başlayıb. Qadının öldüyünü görən kişi dərhal küçəyə çıxıb və Əmircanda küçədən keçən post patrol maşınının qarşısını kəsərək arvadını öldürdüyünü, polisə təslim olmaq istədiyini deyib. Hadisə yerinə gələn polislər Rahibin doğru dediyini görüblər.

# İran vətəndaşı daxili orqanında sərhəddən psixotrop maddə keçirərkən saxlanılıb

**Dövlət Gömrük Komitəsi (DGK) Biləsuvar Gömrük İdarəsinin "Qoşa Təpə" gömrük postunda İrandan Azərbaycana piyada gələn İran vətəndaşı Alıpour Abbas Esmaeılin üzərində qanunvericiliyə uyğun olaraq şəxsi yoxlama aparılıb. Bu barədə DGK-dan məlumat verilib.**

Məlumata görə, yoxlama nəticəsində həmin şəxsin daxili orqanı - düz bağırsağında gömrük nəzarətindən gizlədilən, 6 ədəd selofan bükümdə ümumi xalis çəkisi 57,20 qram olan "Metamfetamin" adlı psixotrop maddə aşkar olunub.

Qeyd edək ki, aşkar edilən psixotrop maddə "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən psixotrop maddələrin"in I siyahısına daxildir.

# Ağsuda 3 uşaq anası özünü asdı

**Ağsu rayonunda intihar hadisəsi baş verib. APA-nın xəbərinə görə, hadisə rayonun İlxıçı kəndində qeydə alınıb. Kənd sakini, 1982-ci təvəllüdlü Kərimova Səbirə Tehran qızı yaşadığı evin həyətindəki yardımçı tikilidən özünü kəndirlə asaraq intihar edib.**

Üç uşaq anası S.Kərimovanın özünə qəsd etməsinin səbəbi hələlik məlum deyil. Hadisənin ailə münaqişəsi zəminində baş verdiyi ehtimal olunur.

Faktla bağlı Ağsu Rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.

# Bakıda bina yandı, sakinlər təxliyə edildi

**Bakıda yanan binanın sakinləri təxliyə edilib. Lent.az FHN-in saytına istinadən xəbər verir ki, Yasamal rayonunda beşmərtəbəli yaşayış binasında yanğın olub. Hadisə zamanı binanın 1-ci mərtəbəsində, pilləkən qəfəsində quraşdırılmış elektrik sayğacı və 5 p.m kabel yanıb. Yanğınsöndürənlər tərəfindən 13 nəfər bina sakini təhlükəsiz yerə təxliyə olunub, 1 nəfər xilas edilib.**

Mənzillər yanğından mühafizə olunub. Yanğın yanğın bölmələri tərəfindən söndürülüb.

YENİ MÜSAVAT
N 19 (6908) 26 yanvar 2018




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Mübarək dinimizdə ən çox diqqət ayrılan və diqqət ayırılması tövsiyə edilən mövzu - ailə üzvlərinin qarşılıqlı münasibətləri və ailədə əxlaqdır. İnsan diqqət edəndə görür ki, bu mövzuda zaman-zaman ən sadə məsələlər belə, diqqətdən kənarda qala bilir. Həm kişilər, həm qadınlar, həm uşaqlar bu mövzularda çox zaman qəflət edir.**

# Ailənin möhkəm olması üçün əməli tövsiyələr



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

İnsan həyatında ən çox zədələnən və şeytanın (lən) da hədəfinə çevrilən ünvan - ailədir. Şeytanı (lən) ən çox narahat edən mübarək quruluş - ailədir.

### Ailədaxili vəzifələr

Ailə haqqında mövzulara müxtəlif istiqamətlərdən toxunmaq olar. Ailə bir mübarək ocaqdır. Ailə - Allahın bəyəndiyi ən ali bir quruluşdur. Əgər insan bir seçim qarşısında qalsa ki, ailə qursun və ya qurmasın, Allah Təala onun ailə qurmasını bəyənir.

Ailə qurulandan sonra ailənin başçısı mövzusu yaranır. Həyat yoldaşlarından məhz ailənin kişisi üzərinə ailənin başçısı olmaq kimi ağır məsuliyyət qoyulub. Simvolik deyil, elə-belə deyil, sözün hər mənasında kişi - ailənin başçısıdır. Bunu həm kişilər bilməlidirlər ki, ailənin başsıdırlar, həm də xanımlar bilməlidirlər ki, ailələrinin başçısı onların həyat yoldaşıdır.

Kişi öz məsuliyyətini tam həcmdə dərk etməlidir, xanımlar da başa düşməlidirlər ki, onların bir vəzifəsi də həyat yoldaşlarını ailə başçısı kimi qəbul etməkdir. Əgər bir xanım imanlı olmağa iddialıdır və həyat yoldaşını ailədə ailə başçısı kimi qəbul etmirsə, onun imanı sual altındadır. Əgər bir kişi ailə başçısı kimi məsuliyyətini dərk etmirsə, onun da imanı sual altındadır.

### Ailə rifahının təminatı ailədə kişinin əsas məsuliyyətidir

Ailədə bəzi məsuliyyət və öhdəliklər kişinin üzərində, bəziləri də xanımın üzərindədir. Kişinin ailə başçısı kimi üzərində olan ən mühüm məsuliyyət və öhdəliklərdən biri budur ki, o, özündən asılı olan hər şeyi etməlidir ki, ailəsini rifahla yaxşı təmin etsin, ailəsini yaxşı dolandırsın.

Kişi çalışmalıdır, işləməlidir, tənbəllikdən, süstlükdən uzaq durmalıdır, ruzi dalınca getməlidir, əlindən gələni etməlidir ki, ailəsini yaxşı dolandırsın. Həzrət Rəsulallah (s) buyurur: **"Bizdən deyildir o kəs ki, ona rahat bir imkan verilib, amma o, ailəsini çətində tutur".**

Bir var ki, həyat yoldaşının yoxudur, əlindən gələni də edir, amma olanı budur. Belə vəziyyətdə gərək bir-birilərini başa düşsünlər. Bir də var ki, varıdır, amma ailəsi üçün xərcləməyə, ailəsinin rifahını artırmağa əli gəlmir. Peyğəmbərimiz (s) belə kəsdən xoşunun gəlmədiyini bəyan edir.

### Kişinin öz ailəsinin yanında olması o qədər önəmlidir ki...

Kişinin üzərində olan ikinci məsuliyyət budur ki, çalışmalıdır ki, evdə əmin-amanlıq olsun. Bu gün ailələrdə ən ciddi şəkildə axsayan mövzulardan biri məhz budur. Kişi ailədə əmin-amanlığı təmin etmək üçün çalışmalıdır. Bunun üçün kişi zamanının bir hissəsini evinə, ailəsinə ayırmalıdır. Evdə xanım bilməlidir ki, bir söykənəcəyi var, uşaq bilməlidir ki, söykənəcəyi var. Kişinin evdə əmin-amanlığı təmin etmək kimi bir məsuliyyəti var. Kişinin ailədə olması, nəzarətinin ailənin üzərində olması, evə mütəmadi baş çəkməsi, xanımı ilə əyləşib söhbət etməsi, övladlarının yanında olması çox önəmlidir.

Həzrət İmam Sadiq (ə) buyurur: **"Kişiyə yaraşan deyil ki, bir şəhərdə ailəsi ola-ola, o, istirahəti başqa yerdə edə".**

Dürüst kişi işlərini bitirdikdən sonra evinə getməlidir. Ruzi dalınca getmək, ictimai vəzifələr və s. məsələləri yerinə yetirdikdən sonra kişi evinə getməlidir.

Başqa bir buyuruşda Həzrət Rəsulallah (s) buyurur: **"Kişinin öz ailəsinin yanında əyləşməsi böyük Allah dərgahında mənim məscidimdə etikafdan daha sevimlidir".**

Bəzən də insanın vaxtı elə boş-boş məsələlərə, səmərəsiz mövzulara, mənasız söhbətlərə, qeybətlərə, əhəmiyyəti və faydası olmayan batil işlər görməyə, Allahın razı olmadığı mövzulara gedir.

Əgər insan həqiqətən çalışıb öz zamanını tənzimləyə bilsə, daha çox zamanını ailəsinin yanında olar.

### Ailəyə ehtiram, məhəbbət - mömininin əsas xüsusiyyətləridir

Üçüncü mühüm məsələ budur ki, kişi ailədə xanımına ehtiram etməlidir. Ailədə ehtiram - ailə özülünü təşkil edən mövzulardandır. İmam Sadiq (ə) atasından nəql edir: **"Hər kim ki, ailə qurur, gərək xanımını əziz tuta və ona ehtiram edə".**

Ailə quranda insan düşünməlidir. Ailə qurdusa, gərək xanımını əziz tutsun və ona həqiqi mənada hörmət etsin, şəxsiyyətini əziz tutsun.

Kişi ailədə öz məhəbbət və sevgisini izhar etməlidir. İnsanın ailəsinə nə qədər çox məhəbbəti varsa, bir o qədər imanı güclüdür. Həzrət Rəsulallah (s) buyurur: **"İnsanın imanı nə qədər daha kamil olar, xanımına daha çox məhəbbət göstərər".**

Həzrət Peyğəmbər (s) bizlərə öyrədir ki, daha imanlı kəs - ailəsinə, xanımına qarşı daha məhəbbətli olan kəsdir. Necə də gözəl dinimiz var! Belə gözəl, praktik dinin həyatın bütün müstəvilərinə aid buyuruşları var.

Dinimiz bəyan edir ki, insanın imanının artmasının göstəriciləri əməli şəkildə öz əksini tapmalıdır. O qədər tapmalıdır ki, ailənə münasibətdə də özünü büruzə vermiş olsun. Əziz Peyğəmbərimiz (s) və Məsumlar (ə) özləri bu məsələlərdə bizlər üçün ən böyük nümunə olublar.

Kişinin həmçinin ailəsinin, övladlarının aqibəti ilə bağlı da məsuliyyətlidir. Ailənin mənəviyyatı, əxlaqi durumu, uşaqların dürüst insan olaraq tərbiyəsi - kişinin üzərində olan ən ümdə vəzifələrdəndir.

Bəli, ailənin hicabı, namazı, ibadəti, ailədə ibadət ab-havasının olması ilə bağlı kişinin məsuliyyəti var.

### Ailədə qadının məsuliyyətləri

Kişilərlə paralel olaraq, xanımların da ailədə məsuliyyətləri və öhdəlikləri var. Mənəviyyat yolunu gedən xanımların ailədə üzərlərinə düşən vəzifələrdən biri budur ki, ailə başçısının ehtiramını saxlasınlar. Xanım bütün hallarda həyat yoldaşının ehtiramını saxlamalıdır. Əgər bu ehtiramı saxlamasa, tutduğu oruc da, qıldığı namaz da, oxuduğu Quran da, getdiyi əzadarlıq məclisi də, övlad böyüdüb savab qazanması da Qiyamətdə dadına çatmayacaqdır.

Amma ailənin xanımı öz həyat yoldaşının ehtiramını saxlasa, onun nəfəsi də ibadətə çevrilər. Möminə xanımlar bunun fərqində olmalıdırlar ki, ailədə müşküllər çox olar, amma bu müşküllərin həlinin böyük hissəsi xanımların ixtiyarındadır. Əgər həyat yoldaşlarına ehtiram etsələr, itaət etsələr və böyük kimi qəbul etsələr - olan müşküllərin böyük bir hissəsi dərhal həll olar.

Xanımların ailədə ikinci mühüm xüsusiyyəti budur ki, qənaətcil olsunlar. Çünki evdəki məsələlər kifayət qədər xanımın sərəncamındadır. Kişi ailənin zəruri məsələlərlə təmin edir, amma məhz xanımdır ki, ixtiyarında olanları qənaətlə də sərf edə bilər, israfla da. Qənaətcillik - xanımın ən ciddi xüsusiyyətlərindədir.

Üçüncü məsələ budur ki, ailədə xanım birmənalı olaraq həyat yoldaşının idarə etməsini qəbul etməlidir. Bir çox hallarda ailədə bərəkət məhz buna görə olmur, ailədə qarmaqarışıqlıq buna görə düşür, ailədə ab-hava buna görə korlanır. Bəzən xanımlar bu tezisi sərf edəndə qəbul edir, sərf etməyəndə etmir və bununla da ailənin nuraniyyəti itir.

Necə ki, uşaq qəbul etməlidir ki, onun böyüyü - valideynləridir, xanımlar da qəbul etməlidir ki, onların ailə başçıları - həyat yoldaşlarıdır. Xanım öz həyat yoldaşının ailəni idarə etməsini qəbul etməlidir və ona əməlan kömək etməlidir.

Ailədə xanımların üzərində olan dördüncü mühüm məsələ - ailədə aramlığın baş tutmasında öz rollarını ifa etməsidir. Kişi ailədə əmin-amanlığa, qadın isə aramlığa cavabdehdir. Qadın cavabdehdir ki, evin emosional tərkibi, duyğular tərkibi, mənəvi aramlığı yerində olsun, çünki, qadından çox şey asılıdır.

Qadının beşinci vəzifəsi - əmanətdarlıqdır. Xanım həyat yoldaşının onun ixtiyarına verdiyi məsələlərlə bağlı əmanətdar olmalıdır. Övladından, onun ixtiyarına verdiyi maddi məsələlərdən, adından, şənindən tutmuş bütün maddi və mənəvi məsələlərinə qədər hamısına münasibətdə xanım ərinə qarşı əmanətdar olmalıdır.

### Həyat yoldaşınla həmişə mehriban ol

Təbərrük üçün Məsumlardan (ə) ailədaxili münasibətlərə dair bəzi buyuruşlara diqqət edək.

**Əmirəl-möminin (ə) buyurur:** "Həyat yoldaşınla həmişə mehriban ol və onunla yaxşı yoldaşlıq et ki, həyatın səfalı olsun".

**Həzrət Peyğəmbər (s) buyurur:** "Ümmətimin ən yaxşı kişiləri o kəslərdir ki, ailəsinə qarşı kobud və təkəbbürlü olmasın. Onlara rəhm etsin və nəvaziş etsin. Onlara əziyyət verməsin".

**Həzrət Peyğəmbər (s) buyurur:** "Hər kim qadınının üzünə sillə vurarsa, Allah cəhənnəmin atəş məmuruna əmr edər ki, cəhənnəm atəşində onun üzünə 70 sillə vursun".

**Həzrət Peyğəmbər (s) buyurur:** "Hər kim bazara gedər və ailəsi üçün hədiyyə alıb apararar - o kəs kimi olar ki, yoxsullara sədəqə apara".

**İmam Rza (ə) buyurur:** "Hər kim ailəsinin rifahını təmin etmək üçün halal yoldan səy edər, Allah yolunda cihad edən mücahid kimi olar".

**Həzrət Peyğəmbər (s) buyurur:** "Sizlərin ən yaxşı qadını o kəsdir ki, əri üçün bəzənər və zinətlənər. Ancaq başqalarından özünü örtər".

**İmam Sadiq (ə) buyurur:** "Sizlərin ən yaxşı qadını o kəsdir ki, ona bir şey verilən zaman təşəkkür edər. Əgər ona bir şey verilməzsə, razı olar".

### Uğurlu ailəni şərtləndirən amillər

Ümumi götürəndə isə İslamın nəzərində uğurlu, nurani, gözəl ailəni şərtləndirən bir sıra amillər var. Əgər biz ailəmizin durumunu müəyyən etmək istəyiriksə, gərək uğurlu ailənin şərtlərini bilmiş olaq. Uğurlu ailəni müəyyən etmək üçün bir sıra meyarlar var ki, onların bəzilərinə toxunacağıq.

İslamın nəzərində uğurlu ailədə olmalı birinci xüsusiyyət - güzəştdir. Güzəşt - ailədə ən mühüm məsələlərdən biridir və belə deyə bilərik ki, əgər ailədə güzəşt və bağışlama varsa, İslamın nəzərdə tutduğu, insan yetişdirmə baxımından dinimizin qarşıya qoyduğu məqsədə nail olunub. Deməli, ilk mühüm məsələ - güzəşt ruhiyyəsidir.

Nurani ailəni şərtləndirən ikinci meyar budur ki, ailə üzvləri bir-birilərini xoş adlarla çağırsınlar. Hətta zarafatca da olsa, gərək çalışılsın ki, ailə daxilində müsbət yüklü xitablarla müraciət olunsun. Bu mövzuya böyük önəm vermək lazımdır.

Üçüncü mühüm mövzu - salam verməkdir. Dinimiz bəyan edir ki, evə gələn adam salam verməlidir, evdən gedən adam sağollaşmalıdır.

Dördüncü mühüm məsələ - qarşılama və yola salmaqdır. Ailə başçısı evə gələndə həyat yoldaşı onu qarşılamalı, gedəndə isə yola salmalıdır. Eləcə də ailənin hər bir üzvü bu diqqəti özündə hiss etməlidir.

Ailəni nuranilşədirən digər xüsusiyyət - münaqişə zamanı məhəbbətli davranışdır. Ailə - canlı orqanizmdir və heç bir neqativ vəziyyətdən sığortalanmayıb. Mühüm odur ki, ailə üzvləri ortaya çıxan münaqişələr zamanı mülayim və məhəbbətlə davranışı davam etdirsinlər.

Altıncı mühüm nöqtə - ailə üzvlərinin səliqə-sahmana riayət etməsidir. Uğurlu ailənin göstəricilərdən biri budur ki, ailə üzvləri səliqə-sahmanlı olsun.

Ailə üzvlərinin bir-birilərini sevindirməsi də uğurlu ailəni şərtləndirən amillərdəndir. Bəzən simvolik bir hədiyyə ilə həyat yoldaşı xanımını nə qədər sevindirə bilər. Bəzən həyat yoldaşının ailə başçısı üçün evdə hazırladığı xüsusi bir yemək mehribançılıq ruhiyyəsini nə qədər artıra bilər.

Ailənin digər mühüm nöqtəsi eyib örtmək və sirdaşlıqdır. Ailə üzvləri bir-birilərinin çatışmayan cəhətləri ilə tanışdır. O ailə uğurlu ola bilər ki, bir-birilərinin eyiblətini gizli tutsunlar.

**Allahdan istəyimiz budur ki, ailədə bütün bu məsələlərə nail olmağı nəsib etsin!**

**Allahım, bütün ailələrdə nurani ab-havanın yaşanmasını nəsib et!**

**Allahım, ailələrimizi Öz nəzərindən kənarda qoyma!**

**Allahım, övladlarımızın saleh bəndələrdən olmasını nəsib et! Amin!**

# YENİ MÜSAVAT

Son səhifə

*N 19 (6908) 26 yanvar 2018*




## “Dünyanın ən ağır oğlanı” arıqladı və divandan qalxa bildi

**Dünyanın ən ağır oğlanı sayılan indoneziyalı Ariya Perman ümumi çəkisinin 1/3 hissəsini atıb və artıq divandan qalxa, dostları ilə oynaya, eləcə də məktəbə gedə bilir. Bu haqda “The Mirror” saytı xəbər verir. Arıqlayana qədər 10 yaşlı oğlanın çəkisi 192 kilo idi. İki il ərzində o, 76 kilo atıb və qəflətən həyat tərzini dəyişib. Boş vaxtlarında dostları ilə badminton, futbol oynayan oğlan artıq əlində telefonla divanda və o qədər də böyük olmayan basseyndə oturmağı kənara qoyub. Oğlan müstəqil şəkildə hər gün məktəbə gedir və hər gün 2 kilometr qaçır.**

Onun valideynləri isə oğlanlarını doyurmaq üçün bəzən borc alırdılar. Amma indiki durum onları çox sevindirir. Uşaqları həm az yeyir və sağlamdır, həm də onlar daha yeməyə görə heç kimdən borc almırlar. “O, nəhayət ki, artıq çəkidən qurtulub, xoşbəxtdir və aktiv həyat tərzi aparır” - bunu da Permanın anası deyib. O, qeyd edib ki, oğluna şirniyyat yeməyi qadağan edib və çoxlu meyvə-tərəvəz verir.

Yerli mətbuat isə Permanı 2016-cı ilin yayında qəhvəyi düyü dietasına başlayanda diqqət etmişdi. Həmin vaxta qədər indoneziyalı iri porsiya şorbalar yeyirdi və heç bir paltar əyninə gəlmirdi. 2017-ci ilin yayında uşağa mədə kiçiltməsi ilə bağlı əməliyyat ediblər.

## Öz saxladığı ilan onu öldürdü

**Britaniyanın Beysinqstoun şəhərində 31 yaşlı ekzotik heyvan həvəskarı Den Brendonun ölümü araşdırılanda ortaya ilginc məqamlar çıxıb. Kişi öz valideynlərinin evində 12 tarantula, 10 ilan və 2.54 metr uzunluğu olan piton saxlayırdı. 25 avqust 2017-ci ildə valideynləri onun otağında səs-küy eşitsələr də, buna çox əhəmiyyət verməyiblər. Amma oğulları nahara gəlməyəndə ikinci mərtəbəyə qalxaraq onun üzü aşağı olan bədənini görüblər. Tayni adlı pitondan başqa bütün heyvanlar öz yerində idi. Daha sonradan onu ilanlara qulluq üçün nəzərdə tutulan yeşiyin içində aşkar ediblər. Hadisə yerinə gələn və araşdıran mütəxəssislər mərhumun bədənində ilan dişinin yerini aşkar ediblər.**



**Amma valideynləri hesab edir ki, ilan onu qəsdən zəhərləməyib və nəsə anlaşılmaz bir durum yaranıb. Bunu qəza hesab edən bir çoxları mərhumun öz heyvanlarını çox sevdiyini və onlara bağlı olduğunu, bu səbəbdən də heyvanlardan ona zərər gələ bilməyəcəyini düşünürlər.**

## Sərnişinin havası çatmadı, təyyarənin pancərasini açdı

**Çində yayımlanan “South Chine Morning Post” qəzetinin xəbərinə görə, Hangzhou şəhərindən Çendguya uçuşa hazırlaşan ‘Xiamen’ hava yolu şirkətinə aid bir təyyarədə qəza çıxış qapısının açılması ilə sərnişinlər ciddi panikaya düşüblər. Təyyarə havaya qalxmaq istəyəndə yaşanan bu hadisənin səbəbkarı isə sərnişinlərdən biri olub. Bəzi sərnişinlər gördüklərini sosial mediada paylaşmaq üçün cib telefonları ilə baş verənləri çəkiblər. Bu şəkli paylaşan sərnişinlərdən biri isə aşağıdakıları yazıb: “Bir sərnişinin qəza qapısını açdığını ilk dəfə idi ki, görürdüm. Bizə dedi ki, sadəcə təmiz hava almaq istəyir... Ümid edirəm, uçuşumuz çox da təxirə salınmayacaq”.**

Hər hansı bir zərər vermədiyi üçün hava yolu şirkəti sərnişin haqda cəza tədbiri görməyəcək. Çünki bu, onun ilk uçuşu olub və etdiyi hərəkət də hər hansı itkiyə, probleme səbəb olmayıb.





## Bacı və qardaşını mumiyaladı

**Rusiyanın Moskva şəhərində 77 yaşındakı bir qadının illər öncə ölən qardaş və bacısını mumyalayıb, evində saxladığı ortaya çıxıb. Rusiya İstintaq Komitəsi Moskva bölgəsindəki Podolsk qəsəbəsində bir hadisə ortaya çıxarılıb. 77 yaşındakı bir qadının evində odeyala bükülmüş iki mumiya tapılıb. Qadın səlahiyyətli nümayəndələrə bildirib ki, mumiyaların 8-9 il öncə ölən bacı və qardaşına aiddir. Yaşlı qadın cənazə məsrəflərini ödəyəcək pulu olmadığını, bu səbəbdən də cəsədləri evində saxlamaqdan başqa bir şansı olmadığını söyləyib. Qadını dəlixanaya aparıblar. Mütəxəssislər isə mumiyalanan şəxslərin ölüm səbəbi və tarixini müəyyənləşdirməyə yönələn araşdırmaları gerçəkləşdirirlər.**




**QOÇ** - Yaxşı olar ki, bu təqvimi bütünlüklə istirahətə həsr edəsiniz. Çünki fəaliyyət zəminində istədiyiniz manevrləri edə bilməyəcəksiniz. Axşama yaxın müqəddəs yerlərə gedin.

**BUĞA** - Gecə saatlarına qədər mənfi yüklü Ay bürcünüzdə olduğu üçün neytral mövqedə dayanıb ciddi işlərinizi bütünlüklə təxirə salmalısınız. Heç kimə vəd verməyin. Gün ərzində sağlamlığınıza da diqqət yetirin.

**ƏKİZLƏR** - Maddi problemlərinizin qismən də olsa, qaydasına düşəcəyi gözlənilir. Lakin ünsiyyətdə olduğunuz şəxslərlə ehtiyatlı davranın. Əks halda, özünüzə qarşı inamı itirə bilərsiniz.

**XƏRÇƏNG** - Olduqca uğurlu bir gündür. Ətrafınızda olanların hamısı sizi sevindirəcək. Günün birinci yarısında təzə xəbərlər eşidəcəksiniz. Bu gün şəxsi büdcənizdə artım da labüddür.

**ŞİR** - Hansısa aktiv duruma yetişəcəyinizi düşünməyin. Çünki ünsiyyətdə olduğunuz insanlar bu gün real gücə malik olmayacaqlar. Buna baxmayaraq, maddi durumunuzda irəliləyiş ola bilər.

**QIZ** - Ay ərzində topladığınız yorğunluğu dəf etmək üçün daha çox istirahət etməyiniz məsləhətdir. Yeni iş təkliflərinə razılıq verməyə və uzaq səfərə çıxmağa tələsməyin. Qidanıza fikir verin.

**TƏRƏZİ** - İlin bu dövründə bir qayda olaraq ovqatınız xoş olur. Əsəblərinizi pozan hansısa hadisə baş vermir. Bu səbəbdən də nəzərdə tutduğunuz işləri arxayın görə bilərsiniz.

**ƏQRƏB** - Pulla bağlı müəyyən irəliləyişləriniz gözlənilsə də, soyuğa qarşı tədbirli olmalısınız. Yaxşı olar ki, vaxtınızı daha çox ev şəraitində keçirəsiniz. Bələd olmadığınız şəxslərin vədlərinə aldanmayın.

**OXATAN**- Sağlamlığınızla bağlı müəyyən çətinliklərin olacağını bəyan edən ulduzlar özünüzə diqqət yetirməyinizi məsləhət görür. Nahardan sonra qayğınıza qalanların yanında olun, uzaq yola çıxmayın.

**OĞLAQ** - Planetiniz olan Saturnun “hakimiyyətdə” olması şəxsi işlərinizdə müsbət dönüşə təkan verməkdədir. Odur ki, aktivlik nümayiş etdirməli, işgüzar əlaqələrinizi dərinləşdirməlisiniz.

**SUTÖKƏN** - Dostluq münasibətində olduğunuz şəxslərlə aranızda soyuqluq baş verə bilər. Bunu nəzərə alıb şit zarafatlara, yalançı vədlərə yol verməyin. Saat 17-dən sonra maraqlı qonaqlıq sizi gözləyir.

**BALIQLAR** - Gələn ay görəcəyiniz işlər üçün mütləq danışıqlar aparmalısınız. Bu məsələyə laqeyd yanaşsanız, planlarınız pozula bilər. Uzaqda yaşayan doğmalarınızla əlaqə saxlayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Subaylar daha az yaşayır, nəinki evlilər....



**Araşdırmalara əsasən evli kişilər subay kişilərlə müqayisədə daha çox yaşayırlar. Britaniyalı alimlər bunun bir neçə səbəbini müəyyən ediblər. Adətən kişilər öz səhhətlərinə qarşı kifayət qədər etinasızdırlar. Qadınlar isə əksinə, öz orqanizmlərinə qarşı daha diqqətlidirlər. Bu səbəbdən də məhz qadınlar öz həyat yoldaşlarının səhhətində bir problem gördükdə onları həkimin qəbuluna yazılmağa məcbur edirlər. Bundan əlavə, qadınlar həyat yoldaşlarını vaxtı-vaxtında dərman içməyə və həkimlərin göstərişlərinə əməl etməyə də məcbur edirlər.**

İnfarkt və ya insult olmuş ailəli kişilər xəstəxanaya daha tez çatdırılırlar. Bu da onların həyat yoldaşlarının operativliyinə görə baş verir.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100